RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 114 (8993) CÜMƏ AXŞAMI, 2 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## ABŞ Azərbaycanın sadiq tərəfdaşıdır



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq. Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə evsahibliyi etdiyiniz vaxtda Sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir.

Bütün dünyada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm dönüş nöqtəsini yaşadığımız bir dövrdə biz həm də təmiz enerjiyə keçidlə bağlı uzunmüddətli öhdəliklərimizi təmin etmək məqsədilə zəruri investisiya və dəyişikliklər edirik. Enerji təhlükəsizliyi ilə bağlı məqsədlərimizə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynamışdır. Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır.

Mən Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində Sizin davamlı addımlarınızı alqışlayıram. Amerika Birləşmiş Ştatları bizim davamlı tərəfdaşlıq və əməkdaşlığımıza sadiqdir.

*Hörmətlə,*

***Cozef R. BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Cozef Baydendən İlham Əliyevə növbəti dəstək

Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən biri olan ABŞ-la münasibətlərin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Rəsmi Bakı xarici siyasət kursunda ABŞ-la münasibətlərə hər zaman xüsusi yer verir. Eləcə də rəsmi Vaşinqton Azərbaycanla münasibətləri genişləndirmək üçün müəyyən addımlar atır. İki ölkə arasında enerji, nəqliyyat, infrastruktur, kommunikasiya və digər sahələrdə sıx təmaslar mövcuddur.

→ 4

## Böyük zəfər, quruculuq, qayıdış



→ 7

## Avropanın enerji təminatında Azərbaycanın rolu artır



Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimi keçirilib.

→ 2

## İlham Əliyev "Bakı Enerji Həftəsi"nin iştirakçılarına məktub ünvanlayıb



"Bakı Enerji Həftəsi" Azərbaycan hökumətinin uğurla mübarizə apardığı pandemiyanın yaratdığı ikiillik fasilədən sonra yenidən təşkil olunur. Həm canlı görüşlər, həm də bölgənin sənaye liderləri ilə canlı dialoq sərgi və forumun əhəmiyyətini daha da artırır. Builki "Bakı Enerji Həftəsi" daha dayanıqlı və təhlükəsiz enerji güclərinin yaradılması sahəsində yeni əməkdaşlıq üçün qlobal enerji bazarının əsas oyunçularını, beynəlxalq şirkətləri bir araya gətirir.

→ 4

## Azərbaycan-Serbiya əlaqələrinin genişlənməsi üçün yaxşı potensial mövcuddur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Serbiya Baş nazirinin müavini, mədən və energetika naziri Zorana Mixayloviçi qəbul edib.

→ 4

## Birinci vitse-prezident Mehriban Əliyeva paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Bütün balaca soydaşlarımızı 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Hər bir uşağa möhkəm cansağlığı, sevgi, sevinc, xoşbəxt gələcək arzulayıram! Uca Tanrı uşaqları bütün qada-bəlalardan qorusun!"

## 36-cı əfv

### İlham Əliyevin əfv sərəncamı bu dəfə 213 ailəyə ikiqat bayram sevinci yaşatdı

**Prezident İlham Əliyevin mayın 27-də imzaladığı əfv sərəncamı 213 nəfərə şamil olundu. Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 168 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edildi, 36 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldıldı. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 3 nəfər cəzadan, həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 6 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olundu.**

### Humanizm məfkurəsi

Respublikamızda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, eləcə də vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi daim diqqət mərkəzində olan dövlətimizin ali məqsədidir.

→ 8

## Revanşistlərin niyyəti iflasa uğrayır

### İrəvanda xalqdan dəstək ala bilməyən müxalifət geri çəkilir

Ermənistanda aprelin 25-dən davam edən etirazlar fonunda siyasi böhran gündən-günə kəskinləşir. Bu həm də sosial-iqtisadi vəziyyətin pisləşməsinə səbəb olub. Müxalifət partiyaları baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün birləşsə də, hələ ki, heç bir nəticəyə nail ola bilmirlər.

Müxalifətçilər etirazlarına əsas kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

Radikal müxalifətçilər aksiyalarda təxribatçı çağırışlarla Azərbaycan ərazisində mövcud olmuş keçmiş separatçı rejimə dəstəklərini ifadə edirlər. Dünən İrəvanda hökumət binası yaxınlığında etiraz aksiyası keçirən müxalifət nümayəndələri ilə polislər arasında toqquşma olub. Bir neçə etirazçı yerə yıxılan polisi döyüb.

→ 12

# Avropanın enerji təminatında Azərbaycanın rolu artır

**Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimi keçirilib.**




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi **Rassel Teylor** çıxış edərək dedi:

- Zati-aliləri, Prezident Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün Bakı Enerji Həftəsinin təşkilat komitəsinin nümayəndəsi kimi çıxış etmək mənim üçün şərəfdir. Xüsusilə də ona görə ki, ötən iki il ərzində koronavirus epidemiyası səbəbindən bu tədbiri keçirə bilməmişik. Bu tədbir bizə qeyri-rəsmi mühitdə təkbətək görüşlərin, beynəlxalq və regional sənaye liderləri ilə görüşlərin keçirilməsinin mühüm əhəmiyyət kəsb etməsini göstərir. Azərbaycan koronavirusa qarşı mübarizədə çox ayıq-sayıq olmuşdur və nəticə etibarilə hazırda əhalinin peyvəndlənməsi baxımından aparıcı ölkələrdən biri kimi çıxış edir və məhz buna görə biz bu gün bu tədbiri keçirə bilirik.

Enerji sənayesində cari meyilləri nəzərə alaraq, “Bakı Enerji Həftəsi” tədbiri özündə üç ayrı layihəni ehtiva edir - 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpa Olunan Enerji sərgilərini və əlbəttə ki, sabah keçiriləcək əvvəllər Xəzər Neft və Qaz Konfransı adı ilə tanınan Bakı Enerji Forumunu. Təbii ki, ənənələrə uyğun olaraq bütün bu tədbirlər davam edəcək.

Bakı region üçün əhəmiyyəti artmaqda olan tədbirlərin keçirildiyi mərkəzdir. Bakı təkcə regionda ən böyük olan bu sənaye tədbirinə evsahibliyi etmir. Eyni zamanda gələn həftə baş tutacaq “Formula-1” kimi beynəlxalq yarışın keçirildiyi məkandır.

Bu gün biz sərgidə 30 müxtəlif ölkəni təmsil edən 249 şirkəti salamlamaqdan məmnunluq hissi keçiririk. Əlbəttə ki, bu tədbirə sadiq olaraq davamlı dəstək göstərdiyi üçün təşkilat komitəsinin adından Azərbaycan Respublikasının Energetika Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə dərin təşəkkürümü bildirmək istəyirəm.

Zati-aliləri, Bakıda keçirdiyimiz sərgilərə davamlı olaraq dəstək verdiyiniz və bu mühüm sənaye tədbirinin açılışında ənənəvi olaraq iştirak etdiyiniz üçün mən, həmçinin Sizə öz dərin minnətdarlığımızı ifadə etmək istəyirəm. Bu, hər kəsə həm bu sənaye sahəsinin region üçün əhəmiyyətini və eyni zamanda həmin sənaye sahəsinin daxilində bu tədbirin əhəmiyyətini göstərir.

İndi isə auditoriya qarşısında çıxış etmək üçün Zati-alilərini dəvət etmək istəyirəm. Təşəkkür edirəm.

❖ ❖ ❖

Dövlət başçısı açılış mərasimində çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən pandemiya səbəbindən ikiillik fasilədən sonra Xəzər Neft və Qaz Sərgisinin yenidən başlanmasına görə təşkilatçılara təşəkkürümü bildirmək istərdim. Şadam ki, bu gün bütün dünyadan gəlmiş qonaqlarımız buraya toplaşıblar. Ümid edirəm ki, Neft və Qaz Sərgisində və “Bakı Enerji Həftəsi”ndə keçiriləcək müzakirələr enerji təhlükəsizliyi və enerji ehtiyatlarının şaxələndirilməsi kimi mühüm məsələlərlə bağlı dialoqu gücləndirəcək.

Azərbaycan müstəqillik illərində öz enerji təhlükəsizliyinə sərmayə yatırıb, daxili bazarda tələbatları tam təmin edib və sayı artan ölkələrin enerji təhlükəsizliyində get-gedə daha mühüm rol oynamağa çalışır. Müstəqilliyimizin ilk illərində vəziyyət belə olmayıb. Həmçinin bildirmək istərdim ki, artıq 27-ci dəfədir keçirilən Xəzər Neft və Qaz Sərgi və Konfransı qlobal enerji şirkətlərinin o vaxt müstəqilliyini yenicə qazanmış, bir çox çətinliklərlə üzləşmiş, ərazisinin əhəmiyyətli hissəsi işğal olunmuş və bir çox çağırışlarla üzləşmiş Azərbaycana diqqətinin cəlb edilməsində çox əhəmiyyətli rol oynayıb.

Bu səbəbdən Xəzər Neft və Qaz Sərgisi təşkilatçılarının rolu həqiqətən çox vacib idi ki, diqqəti və sərmayələri cəlb etmək mümkün olsun. Bu konfransın keçirildiyi ilk ildən etibarən Azərbaycan özünün dünyaya açıq olduğunu elan etdi. Biz elan etdik ki, Xəzər dənizini əməkdaşlıq və sərmayələr məkanı kimi görmək istəyirik. Xəzərin neft və qaz yataqlarına yatırılan ilk xarici sərmayələr bizim tərəfdən və tərəfdaşlarımız tərəfindən təmin edilmişdir.

Lakin, söylədiyim kimi, həmin vaxt enerji təhlükəsizliyi tam təmin edilməmişdir. Elektrik enerjisinin və qazın təchizatında fasilələr yaranırdı. Enerjinin verilməsi dayanırdı. Biz ürəkdən çalışmağa başladıq ki, öz enerji təhlükəsizliyimizi təmin edək. Bu iş icra olundu. Eyni zamanda, paralel olaraq, biz neft hasilatını artırmaq və beynəlxalq bazarlara çatdırmaq məqsədilə beynəlxalq sərmayədarlarla, dünyanın aparıcı enerji şirkətləri ilə fəal işləyirdik.

Ötən əsrin sonunda, fikrimcə, mühüm hadisə baş verdi. Azərbaycandan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin açılışı baş tutdu. Bunun sayəsində biz ixraca başlaya bildik və bir çox ölkələrin tələbatlarını təmin etdik. Eyni zamanda biz tərəfdaşlarımızla birgə qaz yataqlarının, xüsusən də dünyada ən iri qaz yataqlarından biri sayılan "Şahdəniz" yatağının kəşfiyyatına başladıq. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri istismara verildi, Azərbaycan qazı, ilk dəfə olaraq, Türkiyənin və Gürcüstanın regional bazarlarına nəql olunmağa başladı. Bir il əvvəl - 2006-cı ildə isə biz Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisinə müvəffəq olduq. Həmin vaxt və indi də, fikrimcə, o, əlamətdar hadisə idi. Bu, neftin beynəlxalq bazarlara çıxarılmasında yeni marşrut və mənbə idi. Həmin vaxtdan etibarən Bakı-Tbilisi-Ceyhan və Azərbaycanın bütün digər enerjinin nəql olunması infrastrukturu hər hansı fasilə olmadan istismar edilir. Bu, əlbəttə ki, proqnozlaşdırmanın, etibarlılığın və bu cür nəhəng, texniki və maliyyə baxımından çətin infrastruktur layihələrin icrasında bacarığımızın təzahürüdür. Həmçinin bu layihələr çox mürəkkəb siyasi mühitdə həyata keçirilmişdir.









Bu, regional enerji təhlükəsizliyi məsələlərinə aid olan mühüm tarixi hadisə idi. Əlbəttə ki, o, Azərbaycan ilə onun qonşuları - Türkiyə və Gürcüstan arasında regional əməkdaşlığı gücləndirdi. Bununla belə planlarımız bundan da böyük idi. Təbii ki, biz Azərbaycanın nəhəng qaz ehtiyatlarını istifadə etmək istəyirdik və əlbəttə, bu məqsədlə bizə yeni boru kəməri lazım idi. Mən deyərdim, XXI əsrin boru kəməri - “Cənub qaz dəhlizi”nə ehtiyac duyulurdu. “Cənub qaz dəhlizi”nin 2020-ci ilin sonuncu günündə uğurla tamamlanması ümumi iradəmizi, komanda daxilində işləmək və böyük uğurları qazanmaq bacarığımızı nümayiş etdirir. Bir çox ölkələri keçən, dənizin dibindən tutmuş uca dağ zirvələrinə qədər gedən 3500 kilometrlik vahid boru kəmərləri sistemi qüdrətimizin və dostluğumuzun təzahürüdür. Buna görə Azərbaycanın ilkin mərhələdə başlatdığı enerji layihələri regional əməkdaşlıq üçün çərçivə yaratdı və onlar hazırda qlobal enerji layihələrinə çevrilib.

“Cənub qaz dəhlizi” fərəhlənə biləcəyimiz layihədir. Eyni zamanda, o, bizə nəhəng "Şahdəniz" qaz-kondensat yatağında hasilatı artırmağa imkan yaradır. Bu, artıq baş verdi. Cəmi bir il beş aydır ki, Azərbaycan həmin tamamilə yeni müasir infrastrukturdan öz qaz ehtiyatlarının nəqlində istifadə edir. Avropa qitəsində təbii sərvətlərimizlə bağlı fəaliyyətimizin genişləndirilməsi həm bizim, həm tərəfdaşlarımız üçün zəruridir. Biz hasilatın və ixracımızın artırılmasına müvəffəq olduq. Ötən il Azərbaycan 22 milyard kubmetr təbii qaz ixrac etmişdir. Bu il gözlənilir ki, bu rəqəm 24 milyard kubmetr olacaq. Gələn il, o, daha da çox olacaq. Göstəricilər hasilat işlərindən və Azərbaycanın Xəzərdəki sektorunda yerləşən digər yataqların istismarından asılı olaraq fərqli ola bilər. Bizim qaz potensialımız yalnız "Şahdəniz"lə məhdudlaşmır. Digər yataqlar da çox perspektivlidir. Gələn il onların bəzilərində hasilat başlayacaq. Bu, enerji təhlükəsizliyinə mühüm töhfə olacaq. Xüsusən də indiki dövrə gəldikdə, Azərbaycanın karbohidrogenlərinə olan tələbat heç zaman görünmədiyi kimi böyükdür. Məsuliyyətli ölkə kimi biz bunu nəzərə alırıq və müxtəlif səbəblərə görə çətinliklərlə üzləşən ölkələri dəstəkləməyə çalışırıq. Hazırda Azərbaycanın müvafiq strukturları sayı artan ölkələrlə daim təmasdadır.

“Cənub qaz dəhlizi”nin icrası ilə məşğul olduğumuz zaman biz boru kəməri ərazisindən keçən ölkələrlə, eləcə də beynəlxalq maliyyə təsisatları, enerji şirkətləri, aparıcı ölkələrin hökumətləri və Avropa Komissiyası ilə çox sıx əməkdaşlıq qurmuşuq. “Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının hər ilin fevralında Bakıda keçirilən illik toplantısı həmin komanda işinin bariz nümunəsidir. Bu il fevralın 4-də “Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının illik toplantısı keçirildiyi zaman biz anladıq ki, planlarımızın ən böyük hissəsi artıq icra olunub və “Cənub qaz dəhlizi” artıq işləyir. İndi isə bizə, sadəcə, işləmək, yeni körpüləri salmaq, yeni əlaqələri qurmaq, interkonnektorları yaratmaq və Avropanın qaz bazarında fəaliyyətimizi genişləndirmək qalır.

Əlbəttə ki, hazırda - iyunun 1-də söhbət apardığımız zaman vəziyyət tamamilə fərqlidir və Azərbaycan qazına olan tələbat sürətlə artır. Təbii ki, biz bunu nəzərə almalıyıq. Lakin, eyni zamanda, potensial istehlakçılar anlamalıdırlar ki, bir il ərzində qazı böyük həcmdə hasil etmək mümkün deyil. Bunun üçün bizə müqavilələr lazımdır. Biz danışıqlara başlamalı və onları sürətləndirməliyik. Biz ənənəvi tərəfdaşlar və sərmayədarla, eləcə də enerji şirkətləri ilə çalışmalıyıq ki, hasilat artsın. Həmçinin biz mövcud qurğuları genişləndirməliyik. Bu məsələləri biz gələn illərdə planlaşdırmırdıq, çünki “Cənub qaz dəhlizi”, artıq söylədiyim kimi, üç boru kəmərindən ibarət vahid boru kəmərləri sistemidir. Onun sonuncu hissəsi - Trans-Adriatik boru kəmərinin buraxıcılıq qabiliyyəti 10 milyard kubmetrdir. İndi isə biz onun genişləndirilməsi haqqında düşünürük, çünki buna ehtiyac var. Əlbəttə, bu, vaxt və çoxlu maliyyə vəsaitlərini, o cümlədən sıx əlaqələndirməni, əməkdaşlığı və bütün iştirakçı ölkələrlə fəal dialoqu tələb edəcək. Biz buna hazırıq. Azərbaycanın Energetika Nazirliyi və Dövlət Neft Şirkəti artıq bütün təlimatlarımı alıblar və onlar fəal danışıqlar aparırlar.

Yeri gəlmişkən “Bakı Enerji Həftəsi” gözəl fürsət olacaq, çünki həmin mühüm məsələlərin müzakirəsi üçün qonaqlarımız arasında bir çox ölkələrdən yüksəksəviyyəli rəsmilər var. Eyni zamanda, əlbəttə, biz “Cənub qaz dəhlizi”nin komanda üzvləri, o cümlədən hökumətləri ilə fəal dialoqu davam etdirməliyik. Mən “Cənub qaz dəhlizi”ndə iştirak edən ölkələrin - Türkiyənin, Gürcüstanın, Bolqarıstanın, Yunanıstanın, Albaniyanın, İtaliyanın hökumətlərinə fəal əməkdaşlıq etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hazırda yeni çağırışların və tələbatların olduğunu nəzərə alaraq, əlbəttə, biz artıq digər potensial istehlakçı ilə danışıqlar prosesindəyik. Lakin bunun üçün yalnız bizim səylər kifayət olmayacaq. Avropada infrastruktura, yeni interkonnektorların tikintisinə yatırımlar olmalıdır və yeni şərtlər üzərində razılıq əldə edilməlidir. Çünki hamımız bilirik ki, qaz biznesində siz birincisi qazı satırsınız, müqaviləni imzalayırsınız, sonra isə, sərmayə yatıraraq hasilata başlayırsınız.

Lakin bütün söylədiklərimin məqsədi ümumi vəziyyəti öz nöqteyi-nəzərimizdən təqdim etməkdən ibarət idi. Bununla belə, eyni zamanda, biz prosesin sürətləndirilməsi üçün əlimizdən gələni edəcəyik və bu, artıq başlayıb.

Mən, həmçinin Birləşmiş Ştatların və Birləşmiş Krallığın hökumətlərinə təşəkkürümü bildirmək istərdim. Onlar enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində bizə hər zaman böyük dəstək veriblər. Biz həmin böyük dəstəklə bu nəticələrə nail ola bildik. Mən, həmçinin beynəlxalq maliyyə təsisatlarına - Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına, Asiyanın İnfrastruktur və İnvestisiya Bankına, yəni “Cənub qaz dəhlizi”ni maliyyələşdirmiş bütün banklara təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, onlar həmçinin bizim yeni planlarımızın həyata keçirilməsinə, xüsusilə də Trans-Adriatik boru kəmərinin genişləndirilməsinə də maliyyə dəstəyi verəcəklər. Həmçinin biz TANAP-ın genişləndirilməsi haqqında da düşünə bilərik. Çünki mən artıq dediyim kimi, Azərbaycan qazına tələbat artır, bunun üçün potensial var, siyasi iradə var. Beləliklə, biz təbii qazın nəqli ilə bağlı infrastruktur imkanlarımızın potensial tələbatın səviyyəsinə gətirilməsi üçün vaxt itirməməliyik. Burada yalnız TAP deyil, həm də Cənubi Qafqaz boru kəməri və TANAP sürətli qaydada genişləndirilməlidir və biz bunun üzərində çalışırıq.

Bundan əlavə, mən Azərbaycan və Avropa Komissiyası arasında məhsuldar əməkdaşlığı qeyd etmək istəyirəm. Bu da, “Cənub qaz dəhlizi” layihəsinin icrasında vacib rol oynayıb və gələcək planlarımızın reallaşdırılmasında da mühüm rol oynayacaq. Biz bununla bağlı Avropa Komissiyası ilə daimi təmasdayıq və cari ilin fevral ayının əvvəlində Bakıda Avropa İttifaqının enerji məsələləri üzrə komissarı və bizim energetika naziri arasında aparılmış müzakirələr nəticəsində Avropa İttifaqı və Azərbaycan arasında enerji dialoqunu yaratdıq. Gündəlik olduqca genişdir, buraya neft və qaz kimi ənənəvi sahələr daxildir. Bununla yanaşı, elektrik enerjisi, bərpaolunan enerji, hidrogen və enerjinin səmərəliliyi məsələləri də gündəmdədir. Hesab edirəm, genişspektrli mövzular və bu məsələlərdə fəal əməkdaşlıq bizə imkan verəcək ki, ixrac üçün daha çox qaz həcmlərimiz olsun.

Çünki bizim gündəlikdə duran növbəti planımız yenilənən enerjidir və artıq bu sahədə işlər görülür. Bu sahədə Azərbaycan çox gözəl nəticələr nümayiş etdirir. Çünki biz artıq özümüzü etibarlı ölkə olaraq təsdiq etmişik, o ölkə ki, öz öhdəliklərinə hörmət edir. Qeyd etmək istəyirəm ki, hasilatın pay bölgüsünə dair 1994-cü ildə xarici şirkətlərlə imzalanmış ilk sazişdən bu günə qədər müqavilələrdə bir söz belə dəyişdirilməyib. Bu isə bizim mövqeyimizin təzahürüdür. Biz öz öhdəliklərimizə hörmət edirik və tərəfdaşlarımızdan öz öhdəliklərinə hörmət etməyi gözləyirik.

Beləliklə, etibarlılıq vacib amil idi. İkincisi isə əlbəttə ki, Azərbaycanda olan siyasi və iqtisadi sabitlik, neft, qaz və elektrik enerjisi ilə bağlı infrastrukturun yaradılmasında gözəl nəticələrimizdir. Yeri gəlmişkən, Azərbaycan təkcə neft və qaz deyil, eyni zamanda elektrik enerjisi ixrac edən ölkədir. Nəhəng potensial və təcrübə - bütün bu amillər mühüm enerji şirkətlərini cəlb etməyə və yenilənən enerjiyə investisiya yatırmağa imkan verib.

Bu il biz artıq dünyanın aparıcı enerji şirkətləri olan "ACWA Power" və "Masdar" şirkətləri ilə iki təməlqoyma mərasimi keçirmişik. Hazırda biri günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa olunur ki, onların birgə istehsal gücü 470 meqavatdır. Gələn il bu iki stansiya istifadəyə veriləcəkdir və bu, yalnız başlanğıcdır. Çünki biz artıq yenilənən enerji sahəsində bir çox aparıcı enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindəyik.

Xəzər dənizinin nəhəng potensialı var və artıq bu hesablama aparılıb. Mənə verilən məlumata görə, Xəzər dənizinin Azərbaycan sektorunun potensialı 150 min meqavat təşkil edir, yəni, bu, nəhəng həcmdir.

Eyni zamanda İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərin, xüsusilə də Kəlbəcər və Laçının potensialının 9-10 min meqavat olduğunu hesab edirik. Burada söhbət külək və günəş enerjisindən gedir. Buraya hidroelektrik enerjini əlavə etsək, - hansı ki onun da böyük potensialı var, - buraya daha 1000 meqavat və ya artıq güc əlavə etmək olar.

Bütün bunlar bizim hökumətimiz tərəfindən ciddi şəkildə nəzərdən keçirilir və bərpaolunan enerjiyə nə qədər çox sərmayə qoyulacaq, bir o qədər qaza qənaət ediləcək və ixrac olunacaq, bu, təbiidir.

Beləliklə, bütün bu amillərin vəhdəti, o cümlədən enerjinin səmərəliliyi və bizim şəbəkəmizdə itkilərin aradan qaldırılması Azərbaycandan qaz ixracının artırılması ilə nəticələnəcək. Bu, bizim hədəfimizdir və əminəm ki, biz buna nail olacağıq. Çünki bu günədək planlaşdırdıqlarımızın hamısı reallaşıb. Yalnız neft və qaz sahəsində yox, hökumətimiz bütün planlarına nail olub. Biz bütün bunlara maksimal dərəcədə səmərəliliklə nail olmuşuq.

*Ardı 3-cü səh.*

# Avropanın enerji təminatında Azərbaycanın rolu artır

*Əvvəli 2-ci səh.*




Ənənəvi Xəzər Neft-Qaz Sərgisi və Konfransı, həmçinin "Bakı Enerji Həftəsi" çərçivəsində bütün bu vacib məsələlər müzakirə ediləcəkdir. Neft təchizatı həcminin artırılması müzakirə olunacaq. Bu gün artıq Azərbaycan digər ölkələr üçün vacib tranzit imkanlarını təqdim edir. Bu potensialdan da maksimum dərəcədə istifadə oluna bilər. Təəssüf ki, bu günədək bu potensialdan tam istifadə edilməyib. Təəssüf ki, Azərbaycanın mühüm tranzit ölkəsi qismində potensialı təchizatçılar tərəfindən düzgün qiymətləndirilməmişdir.

Hesab edirəm ki, bu gün artıq onlar fikirlərini dəyişiblər. Çünki hər kəs anlayır ki, şaxələndirmə enerji təhlükəsizliyinin başlıca amillərindəndir. Biz isə enerji strategiyamızın həyata keçirilməsinin ilk günündən etibarən şaxələndirmə üzərində çalışmışıq. Bunun nəticəsində bizim şaxələndirilmiş ixrac marşrutlarımız var - müxtəlif istiqamətə uzanan 3 neft boru kəməri və 4 qaz boru kəmərimiz mövcuddur. Elektrik enerjisi xətlərinə gəldikdə isə biz 4 qonşu ölkəyə elektrik enerjisi ixrac edirik və Avropaya elektrik enerjisi ixrac etməyi planlaşdırırıq.

Biz Zəngəzur dəhlizinin fəaliyyətinə start vermək istəyirik. Bu da yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər. Biz işlərə başlamışıq və bu istiqamətdə investisiya ilə bağlı artıq praktiki addımlar atırıq. Beləliklə, hər bir məsələdə şaxələndirmə vacibdir.

Bu səbəbdən vaxtilə Azərbaycanın etibarlı tranzit ölkəsi kimi potensialını düzgün qiymətləndirməyənlər fikirlərini dəyişəcəklər. Biz artıq müəyyən eyhamlar görürük və biz buna hazırıq. Biz köməyə ehtiyacı olan hər kəsə yardım etməyə hazırıq. Bunun üçün bizdə siyasi iradə var. Hər zaman bizim siyasətimiz körpülər qurmaqdan və əməkdaşlığı gücləndirməkdən ibarət olub.

Bundan əlavə, biz zəruri infrastruktura malikik. Yeni dəniz limanı, bütün istiqamətlərlə bizi birləşdirən dəmir yolu, avtomobil yolları və hava limanları. Azad olunmuş ərazilərdə üç yeni hava limanımız olacaq. Onlardan biri artıq istifadəyə verilib. Beləliklə, Azərbaycan 9 beynəlxalq hava limanına sahib olacaq. Nəhayət, ölkəmizin coğrafi yerləşməsi, yəni, neft və qaz sahəsində əməkdaşlıqla bağlı planlar qurarkən Azərbaycanın tranzit potensialı nəzərə alınmalıdır.

Burada söylədiklərim beynəlxalq tərəfdaşlarımız üçün də önəmlidir. Burada SOCAR və BP arasında strateji tərəfdaşlığı xüsusi vurğulamaq istərdim. Bizim üçün neft və qaz sahəsində BP strateji tərəfdaş və aparıcı investordur. Mən çox məmnunam ki, BP bərpaolunan enerji sahəsinə maraq göstərir. Hazırda SOCAR və BP azad olunmuş Cəbrayıl rayonunda 200 meqavatdan artıq gücə malik elektrik enerjisi stansiyasının inşasını müzakirə edir və ümidvaram ki, tezliklə yaxşı nəticələr olacaq.

Perspektiv planlarımıza gəldikdə, onların reallaşdırılması ənənəvi enerji tərəfdaşlarımızın iştirakı olmadan mümkün olmazdı. Biz bu mühüm dövrdə, dünyada geosiyasi vəziyyətin bir neçə ay bundan öncə ilə müqayisədə kəskin şəkildə fərqli olduğu bir vaxtda istənilən ölkədən olan hər bir şirkətlə əməkdaşlıq etməyə hazırıq.

Burada qeyd etdiklərimin hamısı daxili inkişafımız üçün də çox əhəmiyyətlidir. Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir, bizə imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin. Biz bunun nəticəsini görürük və diqqətinizə cari ilin bəzi göstəricilərini təqdim etmək istəyirəm. Bu il ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində artım 15 faizdən artıq olub. Bütün bunlar islahatların və topladığımız gəlirlərin yönləndirilməsinin təzahürüdür.

Yəni, şaxələndirmə yalnız enerji təchizatına aid deyil. Bu, bizim iqtisadiyyatımızın şaxələndirilməsidir və biz buna nail oluruq. Hesab edirəm ki, bu gün Azərbaycanda biznes mühiti tamamilə lazımi səviyyədədir və Azərbaycan xarici investisiya üçün olduqca cəlbedici ölkələrdəndir. Dediyim kimi, birincisi, bizim neft-qaz sahəsində nəhəng təcrübəmiz var, biz ənənəvi şirkətlərlə tərəfdaşlığımıza böyük dəyər veririk. Biz heç vaxt imza atdığımız müqavilənin bir sözünü belə dəyişməmişik. Biz sürətlə inkişaf edirik və əlbəttə ki, Qarabağda və Zəngəzurda aparılan yenidənqurma işləri iqtisadi potensialımızı artıracaqdır.

Xarici borcumuzun aşağı səviyyədə olması - ümumi daxili məhsulun yalnız 12.5 faizini təşkil etməsi də münbit iqtisadi şərait yaradır. Biz əlavə kreditlər götürə bilərik, sadəcə, bunu etmirik, çünki buna ehtiyac yoxdur. Biz xarici borcumuzu ümumi daxili məhsulun 10 faizi səviyyəsinə salmaq istəyirik və bununla bağlı hökumətə göstəriş vermişəm.

Bununla yanaşı, görsək ki, Azərbaycan üçün vacib olan qlobal əhəmiyyətli layihələr var, əlbəttə, biz ənənəvi tərəfdaşlarımıza, aparıcı maliyyə institutlarına müraciət edəcəyik ki, bizə dəstək olsunlar. Bizim bununla bağlı "Cənub qaz dəhlizi" və digər layihələrdə təcrübəmiz var.

Biz bu gözəl tədbir üçün darıxmışdıq və artıq dediyim kimi, bu, regionun aparıcı beynəlxalq enerji tədbiridir. Mən bir daha qonaqlarımıza bizimlə olduqlarına görə təşəkkür edirəm və "Bakı Enerji Həftəsi"nin işinə uğurlar diləyirəm. Sağ olun.

❖ ❖ ❖

**Moderator:** Təşəkkür edirəm, Zati-aliləri. İndi isə auditoriya qarşısında çıxış etmək üçün ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxmanı dəvət edirəm.

Xanım **Laura Loxman** çıxış edərək dedi:

- Çox sağ olun, sabahınız xeyir Prezident Əliyev, nazirlər və qonaqlar.

Bu gün burada olmaq mənim üçün şərəfdir və "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 27-ci illik sərgi çərçivəsində sizə qoşulmaqdan məmnunluq hissi keçirirəm. Bu yaxınlarda Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illik ildönümünü qeyd etdik. Ölkələrimiz uzun müddətdir ki, yaxın tərəfdaşdırlar və Cənubi Qafqazda müstəqillik və demokratiyanı Amerika Birləşmiş Ştatlarından çox heç kim dəstəkləmir. Azərbaycan regionda enerji təhlükəsizliyinin irəliləməsində güclü tərəfdaş olmuşdur. Amerika Birləşmiş Ştatları həm də bizim mühüm iqlim məqsədlərinə dəstək olan etibarlı enerji mənbələrinin yaradılması strategiyaları üzərində Azərbaycanla işləməyə davam etmək əzmindədir. İndi isə ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti cənab İlham Əliyevə məktubunu sizin diqqətinizə çatdırmaq istəyirəm.

Xanım Laura Loxman ABŞ Prezidentinin Azərbaycan Prezidentinə məktubunu oxudu. Məktubun mətni ilə AZƏRTAC-ın saytının "Rəsmi xronika" bölməsində tanış ola bilərsiniz.

❖ ❖ ❖

**Moderator:** Təşəkkür edirəm. İndi isə mən Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru xanım Kristina Lobillo Borreronu təqdim etmək istərdim.

Xanım **Kristina Lobillo Borrero** dedi:

- Sabahınız xeyir, Zati-aliləri Prezident Əliyev.

Hörmətli nazirlər və qonaqlar.

Mən çıxışıma öz adımdan, həm də enerji məsələləri üzrə komissar Kadri Simsonun adından bizi Bakı Forumunda iştirak etmək üçün dəvət etdiyinizə görə sizə dərin minnətdarlığımı ifadə etməklə başlamaq istəyirəm.

"Bakı Enerji Həftəsi" qlobal enerji rəqabəti, eləcə də bizim ikitərəfli enerji əlaqələrimiz üçün aktual bir vaxtda keçirilir. Bunun üçün bundan daha yaxşı vaxt ola bilməzdi. Bizim enerji bazarımız bir sıra çağırışlarla üzləşib, COVID pandemiyası, eləcə də enerji qiymətlərinin kəskin şəkildə artması, geosiyasi gərginliklər, iqtisadiyyatlarımızın karbonsuzlaşdırılması və böhranın mümkün qədər tez bir zamanda imkanlara çevrilməsinin zərurəti.

"Cənub qaz dəhlizi" Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir və Azərbaycanın oynadığı rol bizim Avropa İttifaqında qaz təchizatının şaxələndirilməsi səylərimiz baxımından mühüm əhəmiyyət daşıyır. Bu, enerji qiymətlərinin sabitliyi, həmçinin təchizat təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir və biz bunu yüksək qiymətləndiririk. Bizim Azərbaycanla enerji sahəsində münasibətlərimiz uzunmüddətli müsbət enerji dialoqu üzərində qurulub ki, bunun da tarixi Zati-aliləri, Prezident Əliyev və ovaxtkı Prezident Barrozu tərəfindən 2006-cı ildə enerji sahəsində strateji tərəfdaşlıq təklif edən Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış ikitərəfli anlaşma memorandumuna təsadüf edir.

Bizim siyasi, idarəçilik və texniki səviyyələrdə siyasət üzrə dialoqumuz enerji siyasətindəki fəaliyyətimizin sübutudur. Komissar Kadri Simson bu ilin fevralında "Cənub qaz dəhlizi" Məşvərət Şurasının toplantısında iştirak edib və biz qaz, eləcə də bərpaolunan enerji, elektrik enerjisi, enerji səmərəliliyi və hidrogenlə bağlı yüksək səviyyədə dialoq kontekstində müzakirələri davam etdirmişik. Hazırda hər iki tərəf ümumi enerji keçidi və iqlim çağırışları ilə üzləşməklə yanaşı, eyni zamanda bu prosesdə enerji üzrə bəzi ikitərəfli qarşılıqlı səylər və bir-birini tamamlayan addımlar da atır. Bu mühüm dönüş nöqtəsində geosiyasi səviyyədə gərginlik və enerjinin səbəb olduğu gərginliklər kontekstində biz Avropa İttifaqının şaxələndirmə və təchizatın təhlükəsizliyinə töhfənin davam etdirilməsində, xüsusilə bizim "repowereu" prioritetləri ilə üst-üstə düşən enerji mənbələrində çox maraqlı olduğunu vurğulamaq istərdik. Burada biz 3 müxtəlif sahədə işləməyi planlaşdırırıq. Birincisi, yerli bərpaolunan enerji istehsalının daha da inkişaf etdirilməsi və enerjiyə qənaətin artırılması üçün Avropa İttifaqında qaz təchizatını şaxələndirməkdir. Avropa İttifaqı tərəfindən biz şaxələndirməni gücləndirməklə Avropanın qaza olan ehtiyacını qarşılamaq üçün adekvat qaz təchizatı təmin etməkdə çox maraqlıyıq. Biz, həmçinin uzunmüddətli dayanıqlı enerji tərəfdaşlığı üçün təməl yaradırıq. Avropa İttifaqı qarşılıqlı mənfəət, o cümlədən bərpaolunan enerji mənbələrinin inkişafı və daxili inkişaf üçün hidrogen istehsalı, beynəlxalq ticarət baxımından öz enerji tərəfdaşlarını uzunmüddətli güclü əlaqələrlə təmin etmək əzmindədir.

Biz Azərbaycanla enerji sahəsində uzunmüddətli tərəfdaşlığımızı həm strateji enerji davamlılığı, həm də yaşıl enerji ambisiyalarımıza mühüm töhfə kimi görürük. Biz enerji sistemlərimizin struktur transformasiyasının sürətləndirilməsi, enerji səmərəliliyi istiqamətində səylərimizin, məhsuldarlığımızın, iqtisadi artımın və sənaye bazamızın gücləndirilməsi, həmçinin 2050-ci ilə qədər ölkələrimizin iqlim neytrallığı yoluna qədəm qoyması baxımından Azərbaycan və beynəlxalq tərəfdaşlarla işləməyi səbirsizliklə gözləyirik.

Təşəkkür edirəm, Zati-aliləri. Enerji forumunda iştirakı səbirsizliklə gözləyirəm. Təşəkkür edirəm.

❖ ❖ ❖

**Moderator:** Təşəkkür edirəm. İndi isə Böyük Britaniyanın biznes, enerji və təmiz inkişaf üzrə dövlət naziri Qreqori Uilyam Hendsin videomüraciətini təqdim edirik.

Nazir **Qreqori Uilyam Hends** videomüraciətində dedi:

- Cənab Prezident, Zati-aliləri, "Bakı Enerji Həftəsi"nə müraciət etmək imkanı yaratdığınıza görə təşəkkür edirəm. Mən, həmçinin Birləşmiş Krallıqla Azərbaycan arasında diplomatik əlaqələrin 30 illiyi münasibətilə hər iki ölkəni təbrik etmək istəyirəm. Bu tədbir Avropanın enerji təhlükəsizliyi və iqlimimiz üçün mühüm vaxta təsadüf edir. Biz Ukraynanın Rusiya tərəfindən işğalı səbəbindən qarşılaşdığımız qeyri-adi vəziyyəti dərk edirik. Bu yeni reallıq bizim enerji sahəsində qarşılaşdığımız mühüm seçimlərə diqqət çəkir. Biz təmiz enerji istehsalı və sıfır karbon tullantıları olan iqtisadiyyata keçidi sürətləndirmək üçün indi hər zaman olduğundan daha çox birlikdə çalışmalıyıq. Bu gün Azərbaycan Gürcüstan, Türkiyə və Avropadakı tərəfdaşları üçün etibarlı və sabit təbii qaz təchizatçısıdır. Azərbaycandan başlayan "Cənub qaz dəhlizi" mühüm nailiyyəti əks etdirir. "Cənub qaz dəhlizi"nin genişlənməsi Avropaya qaz təchizatının şaxələndirilməsini dəstəkləyəcək. Biz kömürdən imtina edərək təmiz enerjiyə keçərkən təbii qaz həlledici rol oynamaqda davam edəcək. Ötən il Birləşmiş Krallığın sədrliyi ilə keçirilən COP26 İqlim Dəyişikliyi Konfransında biz ciddi öhdəliklərin şahidi olduq. Biz Azərbaycan hökuməti də daxil olmaqla, tərəfdaşlarımızın COP26-da üzərilərinə götürdükləri öhdəlikləri alqışlayırıq və iqlim dəyişikliyi ilə mübarizədə daha çox səylərin göstərilməsini səbirsizliklə gözləyirik.

Birləşmiş Krallıq həmçinin təmiz enerjiyə keçidlə bağlı Azərbaycanın öhdəliyini alqışlayır. Sıfır karbon kursunun üstünlüklərindən biri onun enerji təhlükəsizliyi ilə uyğunluğudur. Sıfır karbon, həmçinin çiçəklənmə deməkdir. Neft və qazın qiymətlərinin qalxması təmiz enerjiyə investisiya yatırılmasını daha da əsaslandırır. Son 30 ildə Azərbaycanın yaxın tərəfdaşı olmuş Birləşmiş Krallığın BP kimi şirkətləri 2050-ci ilədək sıfır karbon tullantılarına nail olmaq üçün iddialı planlar qəbul edib. Azərbaycan kimi ölkələrin sıfır karbon tullantılarını təşviq edən ölkə olmaq üçün yüksək potensialı var. Qlobal istiləşməni 1,5 dərəcə səviyyəsində saxlamaq üçün bizim əlimizdə olan vaxt pəncərəsi sürətlə daralır. Ötən il imzalanmış Qlazqo İqlim Paktını reallaşdırmaq üçün bizim hərəkətə keçməyimiz vacibdir. Hər bir ölkə emissiyanın azaldılması üzrə öz hədəflərini yenidən nəzərdən keçirmək və gücləndirmək üçün çağırışa cavab verməlidir. Biz vədlərimizi yerinə yetirmək və öhdəliklərimizin reallığa çevrilməsini təmin etmək üçün öhdəliklərimizin necə həyata keçirilməsi yolları üzərində birlikdə işləməyə davam etməliyik.

Zati-aliləri cənab Prezident, Birləşmiş Krallıq enerji təhlükəsizliyini təmin edəcək və iqlim dəyişikliyi probleminin həllinə kömək göstərəcək qlobal miqyasda təmiz enerjiyə keçidi sürətləndirmək üçün bütün tərəfdaşlarla işləməyə hazırdır. Təşəkkür edirəm.

❖ ❖ ❖

**Moderator:** Cənab Prezident, xanımlar və cənablar, bununla tədbirin rəsmi hissəsi sona çatır.

"Bakı Enerji Həftəsi" çərçivəsində sizə uğurlar arzulayıram. Ümid edirəm ki, sizin bir çoxunuzu sabah açılacaq Bakı Enerji Forumunda görəcəyik. İştirakınız və diqqətiniz üçün təşəkkür edirəm.

❖ ❖ ❖

Sonda dövlət başçısı sərginin xatirə kitabını imzaladı.

# Azərbaycan-Serbiya əlaqələrinin genişlənməsi üçün yaxşı potensial mövcuddur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Serbiya Baş nazirinin müavini, mədən və energetika naziri Zorana Mixayloviçi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Zorana Mixayloviç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Zorana Mixayloviç azad edilmiş torpaqlarımızda dağıntılar barədə məlumatlı olduğunu bildirərək, bununla əlaqədar ölkəmiz və xalqımız naminə görülən işlər, o cümlədən azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma layihələri ilə bağlı dövlət başçısını təbrik etdi.

Qonaq Azərbaycan şirkətlərinin Serbiyada uğurla fəaliyyət göstərdiyini vurğuladı.

Dövlət başçısı işğal dövründə ermənilərin torpaqlarımızda törətdiyi böyük dağıntılardan danışdı.

Söhbət zamanı 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin regional və beynəlxalq əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi, Zorana Mixayloviçin sərgidə iştirakının önəmi qeyd edildi. Görüşdə ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı, energetika, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

Zorana Mixayloviç Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

# Cozef Baydendən İlham Əliyevə növbəti dəstək

"Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq. Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə evsahibliyi etdiyiniz vaxtda Sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir".

ABŞ Prezidenti Cozef Baydenin Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışı ilə əlaqədar Prezident İlham Əliyevə ünvanladığı məktubda yer alan bu fikirlər bir daha təsdiq edir ki, Ağ Ev strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksələn əlaqələrin daha da gücləndirilməsində maraqlıdır.

Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən biri olan ABŞ-la münasibətlərin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Rəsmi Bakı xarici siyasət kursunda ABŞ-la münasibətlərə hər zaman xüsusi yer verir. Eləcə də rəsmi Vaşinqton Azərbaycanla münasibətləri genişləndirmək üçün müəyyən addımlar atır. İki ölkə arasında enerji, nəqliyyat, infrastruktur, kommunikasiya və digər sahələrdə sıx təmaslar mövcuddur.

Cozef Bayden enerji təhlükəsizliyi ilə bağlı məqsədlərə çatmaq üçün şaxələndirmənin hazırkı dövrdə xüsusilə əhəmiyyətli olduğunu bildirərək qeyd edir ki, Azərbaycan buna nail olmaq üçün regional səylərdə əsas rol oynayıb: "Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirməsi baxımından Trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır".

Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində İlham Əliyevin davamlı addımlarını alqışladığını bildirən Cozef Bayden məktubunun sonunda Amerika Birləşmiş Ştatlarının davamlı tərəfdaşlıq və əməkdaşlığa sadiq qaldığını vurğulayıb.

Qeyd edək ki, bu, Cozef Baydenin son 3 ayda İlham Əliyevə göndərdiyi sayca 3-cü məktubdur. Bundan əvvəl ABŞ Prezidenti Novruz bayramı və 28 May Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidentinə təbrik məktubu ünvanlamışdı.

Novruz bayramı münasibətilə İlham Əliyevə göndərilən təbrik məktubunda Cozef Bayden iki dövlət arasındakı əlaqələrin perspektivinə tam aydınlıq gətirmiş, Azərbaycanla əlaqələrin daha da inkişafında maraqlı olduğunu göstərmişdi. Ağ Ev rəhbərinin Müstəqillik Günü ilə bağlı təbrik məktubu da ABŞ-ın hazırkı Administrasiyasnın Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün İlham Əliyevlə bundan sonra da birgə çalışmaqda maraqlı olduğunu, ABŞ-Azərbaycan əlaqələrinin strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə yüksəldiyini bəyan edirdi.

Hər 3 məktubda qeyd edilən fikirlərə əsaslanaraq deyə bilərik ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyinə və suverenliyinə öz dəstəyini bir daha təsdiqləyir, Ağ Ev İlham Əliyevin qətiyyətli siyasi kursunu təqdir edir.

Ümumiyyətlə, son 19 ildə demokratları və ya respublikaçıları təmsil etməsindən asılı olmayaraq, dünyanın fövqəldövlətinə rəhbərlik etmiş prezidentlər və onların administrasiyaları Azərbaycanla münasibətlərə yüksək ehtiramla yanaşıb. Rəsmi Vaşinqton Azərbaycanı Cənubi Qafqazın lider dövləti kimi qəbul edərək həm regional, həm də qlobal problemlərin həllində onu yaxın tərəfdaşı kimi yüksək qiymətləndirir.

Azərbaycan-ABŞ münasibətlərinin daha da yaxınlaşmasını təsdiqləyən faktlara nəzər yetirsək görərik ki, bu ölkənin bir çox şirkətləri uzun illərdir investor və podratçı qismində Azərbaycanda enerji və qeyri-enerji sektorlarında uğurlu fəaliyyət göstərirlər. Energetika sahəsində Azərbaycan ilə ABŞ arasında yüksək səviyyədə əməkdaşlıq həyata keçirilir ki, bunun da nəticəsində nəhəng qlobal layihələr reallaşır. Bu da öz növbəsində regional inkişafa töhfəsini verir.

Bu bir həqiqətdir ki, Xəzər hövzəsinin enerji təhlükəsizliyi ABŞ-ın xarici siyasətində prioritet olduğundan Azərbaycanın başlatdığı qərbyönümlü enerji siyasəti Vaşinqtonun maraqlarına uyğundur. Ölkəmizin qətiyyətli enerji siyasəti ABŞ-Azərbaycan münasibətlərinin inkişafında təkanverici amilə çevrilib. ABŞ hər zaman iri enerji layihələrinin icrasında yardımçı olduğunu, neft-qaz kəmərləri və ya Amerika şirkətlərinin sərmayə qoyuluşu məsələlərində hər zaman Azərbaycanı dəstəklədiyini söyləyib.

Göründüyü kimi, dünyanın super dövləti olaraq ABŞ İlham Əliyevin yürütdüyü müstəqil siyasətə öz dəstəyini nümayiş etdirir, Azərbaycan Prezidentinin qlobal miqyaslı təşəbbüslərini alqışlayır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# "Bakı Enerji Həftəsi"nin iştirakçılarına

Hörmətli sərgi və forum iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi, bir neçə enerji tədbirini özündə birləşdirən "Bakı Enerji Həftəsi"nin açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı və ölkələrinizin tərəqqisi naminə gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Xəzər regionunda neft-qaz sahəsinin və enerji sektorunun ən mötəbər tədbiri olan "Bakı Enerji Həftəsi" 27-ci Beynəlxalq "Xəzər Neft və Qaz" sərgisini, 10-cu Yubiley Xəzər Beynəlxalq "Energetika və Alternativ Enerji" sərgisini və Xəzər Neft və Qaz Konfransının xələfi olan "Bakı Enerji Forumu"nu özündə birləşdirir.

"Bakı Enerji Həftəsi" Azərbaycan hökumətinin uğurla mübarizə apardığı pandemiyanın yaratdığı ikiillik fasilədən sonra yenidən təşkil olunur. Həm canlı görüşlər, həm də bölgənin sənaye liderləri ilə canlı dialoq sərgi və forumun əhəmiyyətini daha da artırır. Builki "Bakı Enerji Həftəsi" daha dayanıqlı və təhlükəsiz enerji güclərinin yaradılması sahəsində yeni əməkdaşlıq üçün qlobal enerji bazarının əsas oyunçularını, beynəlxalq şirkətləri bir araya gətirir.

Təqdirəlayiqdir ki, qlobal çağırışa çevrilmiş dekarbonlaşma, "yaşıl enerji" növlərinin artırılması, habelə əlverişli və təhlükəsiz enerji təchizatı kimi məsələlər builki Enerji Həftəsində dialoqun əsas gündəliyini təşkil edir. Eyni zamanda, "Bakı Enerji Forumu" enerji sektorunun əsas tədbiri statusu qazanmış Xəzər Neft və Qaz Konfransının ənənələrini davam etdirməklə yanaşı, gündəliyini yeni enerji seqmentləri ilə də genişləndirmişdir.

Dünya ölkələrinin üzləşdiyi çağırışlar və qlobal enerji balansında gözlənilən struktur dəyişikliyi region üçün də dayanıqlı və təmiz enerji güclərinin artırılması, yeni enerji marşrutlarının müəyyən edilməsi kimi vəzifələri gündəmə gətirmişdir. Bunu nəzərə alaraq, qlobal və regional enerji təhlükəsizliyinin təmin olunmasında önəmli oyunçulardan olan Azərbaycan xüsusilə bərpaolunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr həyata keçirir, qonşu ölkələrin enerji sistemləri ilə sıx inteqrasiyaya, regionda sülhün, sabitliyin, təhlükəsizliyin qorunub saxlanmasına dəstək verir.

Enerjinin transformasiyasında təbii qazın getdikcə daha çox əhəmiyyət kəsb etməsi fonunda "Cənub qaz dəhlizi" layihəsinin önəmi daha da artır. Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən bu layihə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır və bu enerji dəhlizinin gələcəkdə genişləndirilməsi imkanları böyükdür.

Azərbaycanda enerji təhlükəsizliyinə, xüsusilə "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edilmişdir. Enerji sahəsində açıq, şəffaf, biznes maraqlarına xidmət edən və nəticələrə hesablanmış əməkdaşlıq və qarşılıqlı dəstək bizim daimi prinsiplərimizdir. 2030-cu ilədək olan dövrdə biz "yaşıl artım" ölkəsinə çevrilməyi və təmiz ətraf mühitə nail olmağı sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirmişik. Belə bir siyasət regionda enerji sahəsində uğurlu transformasiya üçün mükəmməl bünövrəni təmin edəcəkdir.

Ölkəmizdə mövcud olan sabitlik, iqtisadi inkişaf, müasir infrastruktur, əlverişli biznes mühiti və böyük enerji potensialı bərpaolunan enerji növlərinin istehsalı və ixracı sahəsində geniş perspektivlər yaratmışdır. Azərbaycan enerji sahəsində böyük təcrübəsi olan şirkətlərlə birlikdə bərpaolunan yeni enerji güclərinin yaradılmasına hədəflənən iri layihələrin icrasına başlayıb. Artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılması sahəsində mühüm nailiyyətə imza atılıb. Bu, beynəlxalq bazarlarda yeni enerji resurslarının etibarlı təchizatçısı kimi Azərbaycanın mövqeyini daha da artırır və onu gücləndirir.

Bu prosesdə enerji resurslarının diversifikasiyası, dekarbonizasiya, eləcə də təbii qazdan aşağıkarbonlu enerji mənbəyi kimi istifadənin artırılması xüsusi əhəmiyyət daşıyır. İşğaldan azad edilmiş tarixi ərazilərimizin böyük enerji potensialı uğurlu "yaşıl enerji" layihələrinin həyata keçirilməsi və regionda enerji təhlükəsizliyi üçün geniş perspektivlər vəd edir. Məlumatlara görə, Qarabağ və Şərqi Zəngəzurda günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Bu məqsədlər üçün aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual layihələr hazırlanıb, müasir bərpaolunan enerji mənbələrindən ibarət unikal "yaşıl enerji zonası" konsepsiyasının yaradılması davam etdirilir. Nəhəng təbii qaz ehtiyatları ilə yanaşı, bərpaolunan enerji potensialımız "yaşıl artım" ölkəsinə çevrilmək üçün mühüm imkanlar vəd edir.

Dünya neft və enerji sənayesinin inkişafında xüsusi mövqeyi ilə seçilən Azərbaycan, həmçinin müxtəlif ölkələrdə genişmiqyaslı investisiya layihələri həyata keçirməkdədir. Bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan ölkəmizin mövqeyi daha da güclənir. Biz üzərimizə götürdüyümüz öhdəlikləri layiqincə yerinə yetirir və xarici sərmayədarlar üçün də əlverişli şərait yaradırıq.

Regionda enerji təhlükəsizliyi, diversifikasiyası və "yaşıl enerji"yə keçidin sürətləndirilməsi üçün əməkdaşlığımızı daha da genişləndirməliyik. Perspektivdə enerji təhlükəsizliyi sahəsində çağırışları uğurla qarşılamaq məqsədilə bu sahədə yeni texnologiyaların və rəqəmsal həllərin tətbiqi üstünlük təşkil etməlidir.

Hörmətli sərgi və forum iştirakçıları!

Azərbaycan, uzun müddətdir belə qlobal əhəmiyyətli tədbirə evsahibliyi edir. İnanıram ki, özünün çoxillik təcrübəsi sayəsində sərgi və forumunuz aktual mövzulu dolğun məruzələrlə, müzakirə və fikir mübadilələri ilə qarşılıqlı anlaşma mühitində geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açacaq və səmərəli əməkdaşlığa töhfələr verəcəkdir.

"Bakı Enerji Həftəsi"ndə fəaliyyətinizdə Sizə bir daha uğurlar arzu edirəm!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2022-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2022-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2022-ci il*

## Azərbaycan Respublikası mülki aviasiya işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Əzizov Bəxtiyar Maqatil oğlu
Kazımova Lyudmila Əkbərovna
Sadıqzadə Vüqar Sadıq oğlu

**"Tərəqqi" medalı ilə**

Bayramov Ruslan Rasim oğlu
Əli-zadə Nazim İbrahim oğlu
Əmrahova Səbinə Tofiq qızı
Əşrəfov Rasim Gülbaba oğlu
Xəlili Ələddin Mirxəlil oğlu
İbrahimov Fərhad Məcnun oğlu
İsmayıl-zadə Məlahət Nəriman qızı
Karev Nikolay Anatolyeviç
Qardaşxanov Anar Bəhrəm oğlu
Qədirov Nazim Allahverdi oğlu
Quliyev Ceyhun İzzət oğlu
Qurbanov Tariyel Xəlil oğlu
Nəsrullayev Elşad Gülməmməd oğlu
Sultanov Fikrət Rasim oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2022-ci il*

## Azərbaycan Respublikasının mülki aviasiya işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mühəndis"**
Quliyev Fuad Əkram oğlu

**"Əməkdar pilot"**
Abdullayev Qələndər Əjdər oğlu
Abdullayev Natiq Zirəddin oğlu
Babayev Oqtay Adil oğlu
Balaxanov Namiq Qulam oğlu
Cumayev Rövşən İlyas oğlu
İbrahimov Akif Mədəniyyət oğlu
İsmayılov Çingiz Məcit oğlu
Məmmədov Rüfət Əliməmməd oğlu
Səttərov Marat Xanlar oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2022-ci il*

# Baş nazir Əli Əsədov BP-nin nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 1-də BP şirkətinin Hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə BP arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

BP tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin əhəmiyyəti vurğulanıb. Bu kontekstdə işğaldan azad olunmuş ərazilərdə günəş-elektrik stansiyasının inşası ilə bağlı bp şirkəti ilə aparılan danışıqlara toxunulub.

# Azərbaycan ilə İran arasında uğurlu əməkdaşlığın nəticələri yüksək qiymətləndirilib



Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev iyunun 1-də İran İslam Respublikasının neft naziri Cavad Ovci ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, C.Ovci 28 May - Müstəqillik Günü münasibətilə Azərbaycan xalqına səmimi təbriklərini çatdırıb.

Görüşdə Azərbaycan ilə İran arasında müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, sərmayə qoyuluşu, nəqliyyat-tranzit, enerji, sənaye, kənd təsərrüfatı və digər istiqamətlərdə həyata keçirilən uğurlu əməkdaşlığın nəticələri yüksək qiymətləndirilib.

Söhbət zamanı iki ölkə arasında ali səviyyəli siyasi dialoqun mövcud olduğu bildirilib, Azərbaycan Prezidenti İlham Əliyev ilə İran Prezidenti Seyid İbrahim Rəisi arasında mütəmadi təmasların dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb.

C.Ovci İranın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hər zaman dəstəklədiyini diqqətə çatdırıb.

Eyni zamanda yüksəksəviyyəli qarşılıqlı səfərlərin, eləcə də tərəflər arasında əldə olunmuş razılaşmaların və imzalanmış sənədlərin əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

Bölgədə yaranmış yeni reallıqların əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığı qeyd edilib. Bu baxımdan iki ölkə arasında martın 11-də imzalanmış İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun önəmi vurğulanıb.

Neft-qaz sahəsində uğurlu əməkdaşlığın davam etdiyi bildirilib. Türkmənistan qazının İran ərazisindən Azərbaycana nəqli layihəsinin həyata keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsi perspektivləri müzakirə olunub, enerji sektorunda həyata keçiriləcək bir sıra yeni layihələrə dair fikir mübadiləsi aparılıb.

# Baş nazirin müavini Şahin Mustafayev Rusiyanın Perm vilayətinin nümayəndə heyəti ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev iyunun 1-də Rusiya Federasiyasının Perm vilayətinin qubernatoru Dmitriy Maxoninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin ticari-iqtisadi, investisiya, nəqliyyat, tranzit, humanitar və bir çox digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı təmasların ikitərəfli əlaqələrin inkişafına müsbət töhfə verdiyi bildirilib.

Eyni zamanda iki ölkə arasında müxtəlif istiqamətlərdə uğurla həyata keçirilən müştərək layihələrin əhəmiyyəti qeyd edilib.

Azərbaycanın Rusiyanın ayrı-ayrı subyektləri, o cümlədən Perm vilayəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiyi bildirilib.

2021-ci ilin dekabrında Perm vilayətinin rəsmi nümayəndə heyətinin Azərbaycana səfərinə toxunulub, səfər zamanı bir sıra işgüzar görüşlərin keçirildiyi və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi imkanlarının müzakirə edildiyi vurğulanıb.

Perm vilayətinin Aqroekspress layihəsi çərçivəsində Rusiyada malların qəbulu və göndərilməsi üzrə pilot ərazilərdən biri kimi müəyyənləşdirildiyi nəzərə alınaraq, nəqliyyat-tranzit sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov Bolqarıstanın Baş naziri ilə görüşüb

Xarici işlər naziri Ceyhun Bayramov iyunun 1-də Bolqarıstanın Baş naziri Kiril Petkov ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın Bolqarıstan üçün çox önəmli bir vaxtda enerji sahəsində ölkəyə yardım etdiyini deyən Baş nazir Kiril Petkov Azərbaycan Prezidenti İlham Əliyevin bu xüsusda rolunu vurğulayıb və Azərbaycan dövlətinin etibarlı tərəfdaş olduğunu qeyd edib.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud olan yüksəksəviyyəli siyasi əlaqələrin iqtisadi sahədə də dinamik inkişaf ilə müşayiət edildiyini bildirib.

Tərəflər ikitərəfli əlaqələrin bir sıra sahələrdə, o cümlədən enerji, iqtisadi-ticarət, informasiya texnologiyaları, nəqliyyat-tranzit, təhsil, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın növbəti iclasının keçirilməsinin iqtisadi əlaqələrin daha da genişləndirilməsinə töhfə verəcəyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Baş nazirə bölgədə münaqişəsonrası mövcud olan vəziyyət, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, minaların təmizlənməsi, sülh quruculuğu istiqamətində Azərbaycan hökuməti tərəfindən atılan addımlar barədə məlumat verilib.

Görüşdə regional məsələlər və qarşılıqlı maraq doğuran digər mövzular müzakirə edilib.

# "Bakı Enerji Həftəsi" çərçivəsində İtaliya və Qazaxıstanla enerji əməkdaşlığının inkişafı müzakirə edilib

"Bakı Enerji Həftəsi" çərçivəsində energetika naziri Pərviz Şahbazovun İtaliyanın ekoloji keçid məsələləri üzrə nazir müavini Vannia Qava və Qazaxıstanın energetika naziri Bolat Akçulakov ilə görüşləri olub.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir müavini Vannia Qava ilə görüşdə Azərbaycan və İtaliya arasında enerji əməkdaşlığının inkişafı müzakirə edilib. İtaliyanın enerji təminatının və Avropa qaz bazarında mövqeyinin möhkəmləndirilməsində Trans-Adriatik Boru Kəmərinin (TAP) əhəmiyyətindən bəhs olunub.

Energetika naziri Pərviz Şahbazov Azərbaycanın ən böyük ticarət tərəfdaşı olan İtaliya ilə enerji əməkdaşlığında TAP vasitəsilə təbii qaz tədarükünün mühüm rol oynadığını bildirib. Nazir ilin sonuna İtaliyaya qısa və uzunmüddətli müqavilələr üzrə qaz ixracının 9,5 milyard kubmetr proqnozlaşdırıldığını, TAP-ın ötürücülük gücünün artırılması hesabına isə təkcə İtaliya deyil, Avropanın digər ölkələrinin də daha çox təbii qazla təchizatının mümkün ola biləcəyini qeyd edib.

Görüş zamanı bərpaolunan enerji sahəsində İtaliya şirkətləri ilə əməkdaşlıq, həmçinin işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesinə dəstəklə bağlı da fikir mübadiləsi aparılıb.

Qazaxıstanın energetika naziri Bolat Akçulakov ilə görüşdə isə ölkələrimiz arasında energetika sahəsində ikitərəfli əməkdaşlıq məsələləri və enerji bazarlarında vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Qazaxıstanın enerji resurslarının dünya bazarına nəqli ilə bağlı imkanlar dəyərləndirilib. Söhbət zamanı Qazaxıstanın neft və neft məhsullarının Azərbaycan üzərindən tranziti ilə yanaşı, mayeləşdirilmiş təbii qazının Xəzər dənizi vasitəsilə Azərbaycana çatdırılması üzrə İşçi qrupları səviyyəsində görülən tədbirlər də müzakirə edilib.

# Azərbaycan Nəqliyyat və Beynəlxalq Xəzər Neft və Qaz sərgilərinə evsahibliyi edir

**İyunun 1-dən paytaxtımız Xəzər regionunun neft-qaz və enerji sektorunda ən nüfuzlu tədbir hesab olunan Bakı Enerji Həftəsinə və Xəzər regionunun nəqliyyat sektorunun aparıcı sərgilərinə evsahibliyi edir.**




AZƏRTAC xəbər verir ki, iyunun 4-dək davam edəcək "Bakı Enerji Həftəsi" ("Baku Energy Week") öz brendi altında 3 böyük tədbiri birləşdirib - 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji sərgiləri və Bakı Enerji Forumu. Bu il sərgilərə və foruma 31 ölkədən 250 şirkət qatılır.

Forumda iştirak edən ölkələr arasında ABŞ, Almaniya, Azərbaycan, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, Niderland, İsrail, İspaniya, İsveçrə, İndoneziya, İtaliya, Qazaxıstan, Macarıstan, Norveç, Rumıniya, Rusiya, Serbiya, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə, Xorvatiya, Yaponiya, Yunanıstan, Özbəkistan yer alıb.

Tədbirə ənənəvi olaraq Azərbaycanın Energetika Nazirliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) dəstək göstərirlər.

"Bakı Enerji Həftəsi"nin statusunu onun sponsorlarının tərkibi də göstərir: "ACWA Power", BP, "Equinor", "Masdar", INPEX, "Türkiye Petrolleri", "Baker Hughes", "Microsoft", "PASHA Bank", "TechnipFMC", "Tenaris", "TotalEnergies", "Uniper", "Azeri MI Drilling", AZFEN, "Baku Steel Company", "Caspian Drilling", "Caspian Marine Services Limited", "Ernst & Young", "Global Energy Azerbaijan Management", "Tekfen".

İştirakçılar arasında "Bos Shelf", "Gazprombank", "Equinor", "Schlumberger" və digər şirkətlər çıxış edir.

"Bakı Enerji Həftəsi"nin əlavə tədbirlər proqramı çərçivəsində ənənəvi olaraq İkitərəfli Biznes Görüşləri (B2B) keçirilir. Keçirilən sessiyalar aktual mövzuları əhatə edir: "Neft və Qaz sənayesində avtomatlaşdırma üzrə qabaqcıl həllər", "Layihələrin çatdırılmasında istismara vermə mərhələsinin əhəmiyyəti", "Energy Talks" sessiyaları: "Women in power", "Bizimkilər", "Neft və Qaz bazarında tələb olunan təchizatçı necə olmaq olar", "Əhəmiyyətli dərəcədə fərqli xüsusiyyətlərə malik neft məhsullarının saxlanması və tədarük zəncirinin idarə edilməsi", "Neft sənayesində SƏTƏM idarəetməsi", həmçinin iştirakçı şirkətlərin təqdimatları da keçirilir.

Bakı Ekspo Mərkəzində Xəzəryanı regionun energetika sektorunda ən böyük tədbir - 27-ci Beynəlxalq Xəzər Neft və Qaz "Caspian Oil & Gas" 2022 sərgisi keçirilir. Xəzər Neft və Qaz Sərgisi Azərbaycan Respublikasının müstəqillik əldə etdiyi tarixdən bəri keçirilən ilk sərgidir. Regionda neft-qaz sənayesinin əsas tədbiri və tanınmış beynəlxalq platforması olan Xəzər Neft və Qaz "Caspian Oil & Gas" sərgisi hər il Xəzəryanı regionun əsas neft-qaz layihələrinin müzakirəsi və enerji təhlükəsizliyinin təmin olunması məqsədilə ən yüksəksəviyyəli rəhbər işçilərini öz meydançasında bir araya gətirir.

"Xəzər Neft və Qaz" sərgisinin keçirilməsi təşəbbüsü Ümummilli Lider Heydər Əliyev tərəfindən dəstəklənib. O vaxtdan bəri "Xəzər Neft və Qaz" sərgisi neft, qaz və energetika sahəsində aparıcı mütəxəssislərin görüş yeri olub, burada gələcək əməkdaşlığa dair memorandumlar, müqavilələr imzalanıb. Sərgi yarandığı ilk günlərdən respublika rəhbərliyinin ciddi diqqəti altındadır. Hər il Prezident İlham Əliyevin açılış mərasimində iştirakı sərginin yüksək statusunu bir daha təsdiqləyir. Uzun illər uğur qazandıqları üçün sərgiyə ABŞ, Böyük Britaniya, Türkiyə və digər ölkələrin birinci şəxsləri öz təbrik məktublarını göndəriblər.

Sərgidə Almaniya, Rumıniya, Rusiya milli pavilyonla iştirak edir. Bu ilin yenilikləri arasında: bərpaolunan enerji sahəsində pilot layihələr, yaşıl enerji zonası, dəniz külək enerjisi potensialı, anlaşma memorandumları, yaşıl hidrogen və ixrac məsələləri.

Şirkətlər neft hasilatı və enerji daşıyıcılarının nəqli, neft və qazın saxlanması üçün anbar sistemlərinin təmin edilməsi və servis xidmətləri sahəsində innovativ texnologiyaları, habelə regionun mövcud və gələcək neft-qaz layihələrini, bir sıra digər nailiyyətləri nümayiş etdirirlər.

Ənənəvi "Xəzər Neft və Qaz" sərgisi növbəti dəfə dünyanın müxtəlif ölkələrindən energetika sənayesinin liderlərini bir araya gətirir.

Bu il Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji Sərgisi "Caspian Power" 10 illik yubileyini qeyd edir. Ənənəvi olaraq, Beynəlxalq Xəzər Neft və Qaz sərgisi ilə eyni platformada Xəzəryanı regionun enerji səmərəliliyi və bərpaolunan enerji sahəsində yeganə ixtisaslaşmış tədbiri olan 10-cu Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji "Caspian Power" 2022 sərgisi keçirilir. Sərginin ekspozisiyası beynəlxalq və yerli şirkətlərin energetika və bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsində ən son təkliflərini təqdim edəcək. Bu gün Azərbaycan ardıcıl enerji siyasətini uğurla həyata keçirir və regionda hökm sürən sabitlik və enerji təhlükəsizliyi məhz bu siyasətin nəticəsidir. Qarabağda işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" ilə təmini üçün bərpaolunan enerji mənbələri üzrə investisiyalar və birgə layihələr sahəsində əməkdaşlıq imkanları genişlənəcək.

İyunun 1-də Bakı Ekspo Mərkəzində, həmçinin Xəzər regionunun nəqliyyat sektorunun aparıcı sərgiləri öz işinə başlayıb: 19-cu Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika Sərgisi "Translogistica Caspian" və 10-cu Yubiley Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road&Traffic" Sərgisi.

Sərgilərdə Azərbaycan, Almaniya, Belarus, Yunanıstan, İtaliya, Qazaxıstan, Rusiya, Türkiyə və Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri öz məhsul və xidmətlərini təqdim edirlər.

"Translogistica" sərgisi dəmir yolları, dənizçilik sənayesi və nəqliyyat-logistika xidmətləri kimi nəqliyyat sektorlarını birləşdirən səmərəli platformadır. Sərgi həm Azərbaycanın, həm də region ölkələrinin dövlət nəqliyyat strukturlarını təmsil edən rəhbər və mütəxəssislərlə görüşmək, eləcə də nəqliyyat texnologiyalarının ən son nümunələrini nümayiş etdirmək, perspektiv dövlət infrastruktur layihələri ilə tanış olmaq, məhsullar üçün yeni satış kanalları tapmaq, habelə dəmir yolları, dəniz limanları və logistika mərkəzlərinin tikintisi, eləcə də hərəkət heyətinin istehsalı və gəmiqayırma sahələrində təcrübə mübadiləsi üçün unikal imkan yaradır.

Həmçinin "Translogistica" sərgisi yükdaşıma şirkətləri ilə yük sahibləri arasında görüşlərin keçirilməsi üçün işgüzar platforma olmaqla yanaşı, Xəzər və Qafqaz regionunda nəqliyyat-logistika xidmətlərinin təşviqi baxımından da səmərəli vasitədir.

"Translogistica" sərgisi ilə eyni anda 10-cu Yubiley Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road&Traffic" sərgisi keçirilir. "Road&Traffic" sərgisi Azərbaycanda yol infrastrukturu sahəsində əsas ixtisaslaşdırılmış tədbirdir. "Road&Traffic" sərgisi yol infrastrukturu, ictimai nəqliyyat, yol təhlükəsizliyi və informasiya texnologiyaları sektorlarının peşəkarlarının görüş yeridir. Sərgi yol, körpü və tunellərin layihələndirilməsi və inşası əsnasında bu sahənin mütəxəssislərinə müasir həll variantlarını təqdim etmək, habelə bazarın tələbatlarını və intellektual nəqliyyat sistemi (İNS) sektoruna aid olan məhsulların satış potensialını tədqiq etmək, Azərbaycanın ictimai nəqliyyat operatorları, yol-tikinti sektorunda çalışan podratçıların mütəxəssisləri ilə də görüşmək üçün nadir imkandır.

Sərgilərə rəsmi dəstəyi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO göstərir.

Əlavə tədbirlər proqramı çərçivəsində təşkil olunan sessiyalardan biri də "Beynəlxalq nəqliyyat dəhlizləri üçün strateji perspektivlər və yeni imkanlar"dır. Layihə rəhbəri Fərrux Əhmədovun moderatorluğu ilə keçən sessiyada beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafının iqtisadiyyatların səmərəliliyinin artırılmasına müsbət təsir göstərdiyi qeyd edilib.

TRACECA Hökumətlərarası Komissiyanın Azərbaycandakı milli katibi Rüfət Bayramov bildirib ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli-coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. O, TRACECA coğrafiyasının genişləndirilməsinin dəhlizə əlavə yük axınlarının cəlb edilməsinə töhfə verə biləcəyini söyləyib.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TİTR) baş katibi Qaydar Abdikerimov mövcud ticarət yollarının şaxələndirilməsinin bütün tərəflərin maraqlarına xidmət etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, qlobal iqtisadiyyatın aktivliyinin qorunub saxlanması maraqlı tərəflərin yeni nəqliyyat və logistika marşrutları tapmasından asılı olacaq.

"Bakı Enerji Həftəsi" çərçivəsində ikitərəfli işgüzar görüşlər keçirilir ki, bu da mövcud əlaqələri gücləndirmək və yeni əməkdaşlıqlar yaratmaq üçün əla imkan yaradır.

Energetika naziri Pərviz Şahbazov Rumıniyanın energetika naziri Virgil Daniel Popesku ilə reallaşan görüşdə Azərbaycandan təbii qaz və neftin tədarükü, həmçinin Azərbaycan və Gürcüstan ilə Rumıniya arasında Qara dəniz sualtı elektrik enerjisi və rəqəmsal qoşulma layihəsi ilə bağlı müzakirələr aparılıb. Bu layihə vasitəsilə Xəzər dənizinin nəhəng külək enerjisi potensialı hesabına Avropaya "yaşıl enerji"nin ixracının mümkünlüyündən bəhs edilib. Energetika naziri Pərviz Şahbazov bildirib ki, Xəzər dənizinin külək enerjisindən istifadə investorların marağındadır və tezliklə bu istiqamətdə imzalanacaq müqavilə "yaşıl" elektrik enerjisinin ixrac imkanlarını artıracaq.

Tədbir çərçivəsində Serbiyanın baş nazirinin müavini - energetika və mədənçilik sənayesi naziri Zorana Mixayloviç ilə də görüş olub.

Söhbət zamanı "Cənub qaz dəhlizi"nin interkonnektorlarla şaxələndirilməsinin Serbiya və Balkan ölkələri, eləcə də təchizatçı kimi Azərbaycan üçün əhəmiyyətli olduğu vurğulanıb. "Cənub qaz dəhlizi"nə Serbiyanın inteqrasiyasına imkan yaradacaq Serbiya-Bolqarıstan (Niş-Dimitrovqrad) qaz kəmərindən, eləcə də Serbiya-Rumıniya və digər interkonnektorlardan bəhs edilib.

Görüşdə təbii qazla yanaşı, bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlıq, birgə layihələrin reallaşdırılması imkanları da nəzərdən keçirilib.

Sonra Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair saziş imzalanıb. Sazişi Azərbaycan tərəfindən energetika naziri Pərviz Şahbazov, Serbiya tərəfindən isə bu ölkənin baş nazirinin müavini - mədən və energetika naziri Zorana Mixayloviç imzalayıb.

Hər iki ölkənin enerji və təbii ehtiyatların potensialından rasional istifadə etmək məqsədi daşıyan bu saziş energetika sektoruna, xüsusən də təbii qaz və bərpaolunan enerji mənbələri, eləcə də mineral kəşfiyyat sahələrinə qarşılıqlı investisiyaların təşviqi, tənzimləyici, enerji səmərəliliyi, birgə müəssisələrin yaradılması üzrə əməkdaşlığı nəzərdə tutur. Sənəddə həmçinin, "Cənub qaz dəhlizi"nin həyata keçirilməsini dəstəkləmək üçün əməkdaşlığın davam etdirilməsi öz əksini tapır.

Energetika naziri Pərviz Şahbazovun İtaliyanın ekoloji keçid məsələləri üzrə nazir müavini Vannia Qava və Qazaxıstanın energetika naziri Bolat Akçulakov ilə də görüşləri olub.

Nazir müavini Vannia Qava ilə görüşdə Azərbaycan və İtaliya arasında enerji əməkdaşlığının inkişafı müzakirə edilib. İtaliyanın enerji təminatının və Avropa qaz bazarında mövqeyinin möhkəmləndirilməsində Trans-Adriatik Boru Kəmərinin (TAP) əhəmiyyətindən bəhs olunub.

Energetika naziri Pərviz Şahbazov Azərbaycanın ən böyük ticarət tərəfdaşı olan İtaliya ilə enerji əməkdaşlığında TAP vasitəsilə təbii qaz tədarükünün mühüm rol oynadığını bildirib. Nazir ilin sonuna İtaliyaya qısa və uzunmüddətli müqavilələr üzrə qaz ixracının 9,5 milyard kubmetr proqnozlaşdırıldığını, TAP-ın ötürücülük gücünün artırılması hesabına isə təkcə İtaliya deyil, Avropanın digər ölkələrinin də daha çox təbii qazla təchizatının mümkün ola biləcəyini qeyd edib.

Görüş zamanı bərpaolunan enerji sahəsində İtaliya şirkətləri ilə əməkdaşlıq, həmçinin işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesinə dəstəklə bağlı da fikir mübadiləsi aparılıb.

Qazaxıstanın energetika naziri Bolat Akçulakov ilə görüşdə isə ölkələrimiz arasında energetika sahəsində ikitərəfli əməkdaşlıq məsələləri və enerji bazarlarında vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Qazaxıstan enerji resurslarının dünya bazarına nəqli ilə bağlı imkanlar dəyərləndirilib. Söhbət zamanı Qazaxıstanın neft və neft məhsullarının Azərbaycan üzərindən tranziti ilə yanaşı, mayeləşdirilmiş təbii qazının Xəzər dənizi vasitəsilə Azərbaycana çatdırılması üzrə İşçi qrupları səviyyəsində görülən tədbirlər də müzakirə edilib.

Beləliklə, sərgilər xarici şirkətlərlə yerli bazar arasında əlaqələrin qurulması, Azərbaycan şirkətlərinin dünya səviyyəsinə çıxması, cari layihələrin genişləndirilməsi və yeni tərəfdaşlar tapması üçün gözəl imkan yaradır.

Qeyd edək ki, Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin media tərəfdaşıdır.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırır, möhkəm birlik və uğurlar arzulayıram.

Sevindirici haldır ki, ötən ay Azərbaycana rəsmi səfərim zamanı Sizinlə görüşmək və ölkələrimiz üçün önəmli olan təhlükəsizlik, siyasi və iqtisadi məsələləri, həmçinin ikitərəfli əməkdaşlığın gələcək inkişafını müzakirə etmək imkanım oldu. Fürsətdən istifadə edərək göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm, eləcə də xanımım Diananın Mehriban xanım Əliyevaya ən xoş arzularını və minnətdarlığını çatdırıram.

Azərbaycan Litvanın Qafqazda önəmli tərəfdaşıdır. Qafqazda sülh, sabitlik və iqtisadi inkişaf region ölkələrinin, eyni zamanda Litvanın və Avropa İttifaqının ümumi maraqlarına uyğundur.

Rusiya-Ukrayna müharibəsi zamanı Avropa İttifaqı ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq xüsusilə vacibdir. Mən çox ümid edirəm ki, biz bu mübarizədə Ukraynanı dəstəkləyəcəyik.

Biz Azərbaycanı enerji sahəsində etibarlı tərəfdaş hesab edirik və buna görə əməkdaşlığımızı daha da inkişaf etdirməkdə maraqlıyıq. Biz, həmçinin nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları, innovasiya və təhsil sahələrində qarşılıqlı faydalı əlaqələrimizi genişləndirə bilərik.

Bu xoş fürsətdən istifadə edərək, Sizi Litvaya səfərə dəvət etmək istəyirəm. Əminəm ki, bu səfər ikitərəfli münasibətlərimizi və xalqlarımız arasındakı əlaqələri daha da genişləndirməyə və gücləndirməyə kömək edəcəkdir.

Milli bayramınız münasibətilə Sizi bir daha təbrik edirəm.

Xahiş edirəm, ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul edəsiniz.

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Monteneqro vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, ölkənizin rifahı və dost Azərbaycan xalqının firavanlığı ilə bağlı ən xoş arzularımı çatdırıram.

Ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı hörmətin və sıx dostluq münasibətlərinin davamlı inkişafını görmək çox xoşdur. İqtisadiyyat və turizm sahələrində əldə edilmiş nəticələr, apardığımız yüksəksəviyyəli siyasi dialoq və qarşılıqlı anlaşma iqtisadi əlaqələrimizin dərinləşməsi üçün yaxşı zəmin yaradır.

Əminəm ki, Monteneqro və Azərbaycan öz məqsədyönlü siyasətləri ilə regional və beynəlxalq səviyyələrdə getdikcə dərinləşən problemlərin həllinə bundan sonra da töhfələrini verəcəklər.

Xahiş edirəm, Sizə olan ən yüksək ehtiramımı və səmimi salamlarımı qəbul edin.

***Milo CUKANOVİÇ,***
***Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Albaniya xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına ürəkdən gələn səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu əlamətdar gündə ölkələrimiz və xalqlarımız arasında sıx dostluq münasibətlərinin yüksək səviyyədə inkişafını qeyd etməkdən çox şadam. Həmçinin bildirmək istəyirəm ki, bizim birgə səylərimiz və iştirakımızla ikitərəfli əməkdaşlıq münasibətləri gələcəkdə daha da inkişaf edəcək və güclənəcəkdir.

Məni iyun ayında ölkənizə səfərə dəvət etdiyinizə görə minnətdarlığımı bildirirəm. Bu xoş fürsətdən istifadə edərək, TAP və İAP layihələrinin Albaniyada uğurlu icrasına göstərdiyiniz dəstəyə görə bir daha təşəkkür edirəm.

Xüsusilə bu gün Avropada təhlükəsizliyə, sabitliyə və sülhə açıq təhdidlərin olduğu bir vaxtda bu layihələr daha böyük əhəmiyyət kəsb edir. Çünki bu layihələr ölkəmizi nəinki dünya enerji sisteminin mühüm seqmentinə, eləcə də regionun və Avropanın bu günü və gələcəyi üçün alternativ enerji mənbəyinə çevirib.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycana və onun xalqına daha böyük inkişaf və firavanlıq arzulayıram.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***İlir META,***
***Albaniya Respublikasının Prezidenti***



❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi çatdırır, bütün sahələrdə tərəqqi və firavanlıq arzu edirəm.

Bu xoş fürsətdən istifadə edərək bildirirəm ki, Yunanıstan Azərbaycanla həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə dialoq və əməkdaşlığı inkişaf etdirməyə hazırdır. Hər iki xalqın və bütövlükdə regionun rifahına xidmət edən qarşılıqlı münasibətlərimizi daha da inkişaf etdirməkdə maraqlıyam.

Milli bayramınız münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı bir daha ifadə edirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Katerina SAKELLAROPULU,***
***Yunanıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zatl-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Malta Respublikasının xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və Azərbaycan Respublikasının xalqına ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Malta Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər xalqlarımızın mənafeyi naminə bundan sonra da inkişaf edəcəkdir. Bizim münasibətlərimiz ikitərəfli səviyyədə, həmçinin Avropa İttifaqı və Şərq Tərəfdaşlığı dialoqu çərçivəsində regional və çoxtərəfli müstəvidə strateji yaxınlaşma üçün imkanlar yaradır. Əminəm ki, Şərq Tərəfdaşlığı Avropa İttifaqı ilə onun Şərqdən olan tərəfdaşları, o cümlədən Azərbaycan Respublikası arasında daha yaxın əməkdaşlıq üçün nadir platforma olaraq qalacaqdır.

Beynəlxalq aləmin dünya nizamının təməl prinsiplərinə təsir göstərən problemlərlə üz-üzə qaldığı bir vaxtda qlobal miqyasda narahatlıq doğuran məsələlərin həlli üçün birgə fəaliyyət göstərmək indi həmişəkindən daha vacibdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, ölkənizə isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Corc VELLA,***
***Malta Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident!

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Bu il diplomatik əlaqələrimizin qurulmasının 30-cu ildönümünü qeyd etdiyimiz bir vaxtda ötən illər ərzində Estoniya ilə Azərbaycan arasında münasibətlərin davamlı olaraq inkişaf etdiyini və genişləndiyini vurğulamaqdan məmnunluq duyuram. Bizim sıx münasibətlərimiz qarşılıqlı anlaşma, ölkələrimizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında qurulub.

Bu əlamətdar gündə Estoniya xalqı adından Azərbaycan Respublikasının dost xalqına uğurlar, xoşbəxtlik, sülh və tərəqqi arzulayıram.

Bu gün Avropanın bir çox ciddi problemlərlə üzləşdiyi zamanda təhlükəsizlik məsələləri ikitərəfli dialoqumuzda daha böyük önəm kəsb edir. Azərbaycanın Ukraynaya göstərdiyi yardıma görə minnətdarlığımı bildirmək istəyirəm. Müharibəni dayandırmaq və ondan əziyyət çəkən insanları qorumaq ən vacib məsələdir.

Bu fürsətdən istifadə edərək Azərbaycan ilə Estoniya arasında dostluq münasibətlərinin xalqlarımızın mənafeyi və rifahı naminə daha da inkişaf edəcəyinə əminliyimi bildirmək istəyirəm.

Əziz həmkarım, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

***Alar KARİS,***
***Estoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Dost Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan sevinc hissi duyuram.

Bu xoş fürsətdən istifadə edərək dost ölkələrimiz arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrindən məmnunluğumu ifadə edir, Sizə uzun ömür, möhkəm cansağlığı, dost xalqınıza davamlı tərəqqi və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Sabah Xalid əl-Həməd Əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi milli bayramınız - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə Azərbaycan xalqının rifahı naminə işlərinizdə uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik və səadət arzu edirəm.

Fürsətdən istifadə edərək Rusiyanın və Azərbaycan Respublikasının xüsusi xidmətlərinin dövlətlərimizin təhlükəsizliyinin təmin edilməsinə və milli maraqların müdafiəsinə yönəlmiş qarşılıqlı fəaliyyətinə diqqətinizə və dəstəyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi təbrik edirəm.

Sizə cansağlığı və xoşbəxtlik, xalqınıza isə sülh və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş direktoru***

# Prezident Administrasiyasında Müasir Müsavat Partiyasının sədri ilə görüş keçirilib

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkədə aparılan iqtidar-müxalifət dialoqu çərçivəsində iyunun 1-də Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev ilə görüşüb.



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri Prezident İlham Əliyev tərəfindən aparılan genişmiqyaslı islahatların dövlətçiliyin möhkəmlənməsi, əhalinin sosial rifahının yaxşılaşması, işğaldan azad edilmiş torpaqlarımızın bərpası ilə yanaşı, ölkədə baş verən siyasi prosesləri də əhatə etdiyini qeyd edib. Bildirib ki, bu gün Azərbaycanda uğurla davam edən iqtidar-müxalifət dialoqu, yeni siyasi konfiqurasiyanın genişlənməsi, partiyaların fəaliyyəti üçün geniş imkanların yaradılması ölkə rəhbərliyi tərəfindən aparılan ardıcıl siyasi islahatların nəticəsidir. Siyasi partiyaların qurultaylarının keçirilməsi və nəticələrinin dövlət qeydiyyatına alınması, yeni siyasi partiyaların yaradılması və qeydiyyatı, dövlət tərəfindən siyasi partiyalara ofislərin verilməsi, dövlət media resurslarına çıxışlarının təmin edilməsi siyasi partiyalara dövlət qayğısının təzahürüdür. Öz növbəsində müxalif siyasi partiyalar onlara münasibətdə edilmiş bu addımlara adekvat cavab verməli, yüksək siyasi mədəniyyət və ümummilli məsələlərdə həmrəylik nümayiş etdirməli, dövlət və dövlətçiliyin qorunmasında əzmkar olmalı, davamlı inkişafın təmin edilməsində sağlam mövqe sərgiləməlidirlər. Çoxpartiyalı siyasi sistemin inkişafı üçün bütün sağlam siyasi qüvvələr öz töhfəsini verməli, partiyalarla hakimiyyət arasında və partiyalar arasında gündən-günə daha da dərinləşən siyasi dialoq mədəniyyəti bundan sonra da inkişaf etməlidir.

Hafiz Hacıyev siyasi dialoq prosesi çərçivəsində keçirilən görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən dövlətimizin güclənməsi, yeni siyasi konfiqurasiyanın inkişafı və iqtidar-müxalifət dialoqunun davam etdirilməsi istiqamətində həyata keçirilən dövlət siyasətini dəstəkləyir. O, müxalif siyasi partiyanın rəhbəri olaraq iqtidar-müxalifət dialoqunu yüksək qiymətləndirdiyini və Müasir Müsavat Partiyasının ölkəmizdə siyasi sistemin inkişafı naminə atılan bütün addımları gələcəkdə də dəstəkləyəcəyini qeyd edib.

Görüşdə həmçinin Vətən müharibəsində qazanılmış qələbə, ölkəmizin ərazi bütövlüyünün təmin olunması, Azərbaycanın uğurlu xarici siyasəti və ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsi, ölkədə aparılan siyasi dialoq prosesinin müxtəlif formatlarda inkişaf etdirilməsi, müxalif siyasi partiyaların fəaliyyəti və başqa mövzular ətrafında fikir mübadiləsi aparılıb. 28 May - Müstəqillik Gününün yüksək səviyyədə keçirilməsi, Azərbaycan və Türkiyə prezidentlərinin Bakı şəhərində keçirilən texnologiyalar festivalında iştirakı yüksək dəyərləndirilib.

# Vətən müharibəsinin daha 53 iştirakçısı polis orqanlarında xidmətə qəbul olunub

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 1-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 193 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onların 53 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclərlə görüşdə çıxış edən nazir Vilayət Eyvazov Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, Azərbaycanın ümumi inkişafına töhfə verdiklərini vurğulayıb. Nazir daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

# <u>*Aleksey TULBURE:*</u> "Prezident İlham Əliyev beynəlxalq prinsiplərin qorunması məsələsində örnəkdir"

"Azərbaycan və Moldova arasında diplomatik münasibətlər qurulandan bəri həmişə yaxşı münasibət olub, hər hansı problem yaşanmayıb. Ancaq hesab edirəm ki, iki ölkə arasında əməkdaşlığın inkişafı üçün daha yaxşı potensial mövcuddur. Bu, daha çox iqtisadi və enerji sahələrinə aiddir. Nəzərə alsaq ki, regionda yeni vəziyyət yaranıb, hazırda enerji sahəsində əməkdaşlıq daha da genişləndirilməlidir. Bu sahədə Azərbaycan Moldova üçün cəlbedici ölkədir".



Bu fikri AZƏRTAC-a məxsusi müsahibəsində siyasi analitik, Moldovanın BMT və Avropa Şurası yanında sabiq daimi nümayəndəsi Aleksey Tulbure söyləyib. Siyasi ekspert bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev regionun inkişafına öz töhfəsini verməkdədir. Xarici siyasət, tərəfdaşlarına qarşı hörmət, beynəlxalq prinsiplərin qorunması, beynəlxalq öhdəliklərin yerinə yetirilməsində Prezident İlham Əliyev digərləri üçün yaxşı örnəkdir. Aleksey Tulbure hesab edir ki, Moldovaya Azərbaycan kimi daha etibarlı, sabit tərəfdaş lazımdır.

"Moldova Rusiyadan qazın tədarükü baxımından tam asılı ölkədir. Moldova enerji, xüsusilə qaz tədarükü baxımından Azərbaycanı potensial alternativ ölkə kimi görür. Təkcə Moldova yox, Avropa ölkələri də enerji resurslarının tədarükü baxımından Azərbaycanı etibarlı, sabit və alternativ ölkə kimi görür", - deyə Aleksey Tulbure əlavə edib.

# Azərbaycanla Səudiyyə Ərəbistanı arasında parlamentlərarası əlaqələr müzakirə olunub

İyunun 1-də Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Səudiyyə Ərəbistanı Krallığının Məşvərət Şurasında fəaliyyət göstərən Səudiyyə Ərəbistanı-Azərbaycan dostluq komitəsinin üzvləri ilə onlayn formatda görüş keçiriblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fatma Yıldırım ölkələrimiz arasındakı ortaq tarixi, dini, mədəni bağlardan söz açıb. Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik münasibətlərin qurulmasının tarixindən bəhs edən deputat ölkələrimiz arasında əlaqələrin inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. Fatma Yıldırım bu əlaqələrin Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daim inkişaf etdirildiyini vurğulayıb.

O, son dövrlərdə Səudiyyə Ərəbistanını təmsil edən nümayəndə heyətlərinin ölkəmizə səfərləri zamanı Milli Məclisin rəhbərliyi ilə keçirdiyi görüşlərdən danışıb, dövlətlər arasında əlaqələrin inkişafında parlamentlərin roluna toxunub.

Səudiyyə Ərəbistanı Krallığı Məşvərət Şurasının Səudiyyə Ərəbistanı-Azərbaycan dostluq komitəsinin sədr müavini İbrahim bin Məhəmməd Əl-Muflih iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasını qeyd edib. Müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar arasında əməkdaşlığın hər iki ölkənin xalqlarının maraqlarına uyğun olduğu vurğulanıb.

Görüşdə Milli Məclisin Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Ceyhun Məmmədov, Könül Nurullayeva çıxış edərək iki ölkə arasında münasibətlərin əsaslandığı təməllərdən bəhs edib, Səudiyyə Ərəbistanının Ermənistan tərəfindən təcavüzə məruz qalan ölkəmizin ərazi bütövlüyünü daim dəstəklədiyini, müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini müdafiə etməsini xüsusi dost münasibəti kimi dəyərləndiriblər.

Qeyd olunub ki, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində qazanılmış zəfərlə Ermənistan tərəfindən ortaq islam dəyərlərimizə aid dini-mədəni abidələrimizin və məscidlərimizin təhqirinə son qoyub. Bildirilib ki, hazırda Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın himayəsi altında erməni vandallarının dağıtdığı tarixi-dini abidələrin, məscidlərin bərpası istiqamətində böyük işlər görülür, layihələr həyata keçirilir. Deputatlar əlaqələrimizin inkişaf potensialı, perspektivləri ilə bağlı fikirlərini səsləndiriblər.

Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev son vaxtlar Səudiyyə Ərəbistanı və Azərbaycan arasında əlaqələrin durmadan inkişaf etdiyini diqqətə çatdırıb. O, parlamentlər səviyyəsində əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Səudiyyə Ərəbistanı-Azərbaycan dostluq komitəsinin üzvləri Üsamə bin Həsən Arif, Nasir bin Məhəmməd Əd-Duğeytir, Əməl bin Yəhya Əş-Şeyx də ikitərəfli münasibətlərin, parlamentlərarası təmasların, dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf istiqamətləri ilə bağlı fikirlərini bölüşüblər.

Görüşdə parlamentarilər iqtisadi münasibətlərin təşviqi, ticarət əlaqələrimizin davamlı inkişafı, investisiya sahəsində yeni əməkdaşlıq imkanları və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Videokonfransda Milli Məclisin deputatları Afət Həsənova, Anar Məmmədov, Əliabbas Salahzadə, Səudiyyə Ərəbistanı Məşvərət Şurasının Səudiyyə Ərəbistanı-Azərbaycan dostluq komitəsinin üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

# Böyük zəfər, quruculuq, qayıdış

*27 may 2022-ci il Azərbaycan tarixinin ən əlamətdar günlərindən biri kimi salnamələrimizə qızıl hərflərlə həkk olundu. Müstəqillik bayramımızı qeyd etdiyimiz bu əlamətdar günlərdə Zəngilanın Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi keçirildi.*

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə keçirilən mərasimdə Ağalı kənd sakinləri də iştirak etdilər və doğma kəndlərinə qovuşacaqlarının sevincini yaşadılar.*

*Bəli, artıq Zəngilanın Ağalı kəndinin timsalında böyük qayıdışın qürurlu addım səsləri yaxından eşidilməyə başlayıb...*



## İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru dünya miqyaslı dəhlizlərin salındığı, meqalayihələrin gerçəkləşdirildiyi unikal məkana çevirir

### Gələcəyi öz əllərimizlə yaradırıq

Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda möcüzələr yaradır. 30 il ərzində erməni barbarlarının dağıdıb viranəyə çevirdiyi yurd yerlərimiz başdan-başa tikinti-quruculuq meydanına çevrilir, cəmi il yarım əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan ərazilərimizdə həyat yenidən məcrasına qayıdır.

Azad edilən yurdlarımız gündən-günə dirçəldilir, müasir infrastruktur qurulur, "ağıllı kənd", "ağıllı şəhər"lər salınır. Artıq Qarabağ və Şərqi Zəngəzur nəhəng tunellərin çəkildiyi, dünya miqyaslı dəhlizlərin salındığı, beynəlxalq hava limanlarının tikildiyi, meqalayihələrin gerçəkləşdirildiyi unikal məkana çevrilir.

İşğaldan azad edilən tarixi torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər birbaşa Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. Hər zaman çıxışlarında "bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq", söyləyən İlham Əliyev bildirir ki, bu istiqamətdə qarşıya qoyulan bütün hədəflər təmin edilir. O cümlədən də 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış köçkünlərin qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün mühüm layihələr gerçəkləşdirilir.

Buna görədir ki, Qarabağ və Şərqi Zəngəzur bölgəsində genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər, kəndlər yenidən salınır. Mənfur ermənilərin işğal dövrü ərzində divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur, dağıdılan məscidlərimizdən yenidən azan səsi ucalır.

### Zəngilanı Naxçıvanla birləşdirən yol

Qarabağ və Şərqi Zəngəzurda yeni həyat üçün görülən qürurverici işləri Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birgə həmin bölgələrə səfərləri zamanı daha yaxından görürük.

Təkcə ötən il dövlət başçısı azad edilən yurdlarımıza 32 dəfə səfər etmişdi. Həmin səfərlərin hər birində ölkəmizin rəhbəri Qarabağda və Şərqi Zəngəzurda əbədi həyatın var olması üçün öz əlləri ilə möhkəm təməllər, bünövrələr, özüllər atıb, şəhərlərimizin baş planlarını təsdiq edib.

Cari ilin ötən 5 ayı ərzində də dövlət başçısı bu müstəsna ənənəni davam etdirib və həmin bölgələrə səfərlər edərək yeni-yeni uğurlu quruculuq işlərinə imza atıb. Bu baxımdan mayın 26-da və 27-də Müstəqillik günümüz ərəfəsində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfərləri də xüsusi əhəmiyyəti ilə diqqət çəkdi.

Dövlət başçısı və birinci xanım ilk öncə Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış oldular.

Tikintisinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulan bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

### Cəbrayılda Soltanlı stansiyasının təməli qoyuldu

Səfər zamanı dövlət başçısı və birinci xanım Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlqoyma mərasimində də iştirak etdilər. Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Layihənin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Bu yolun inşasına 312 milyon 700 min manat vəsait ayrılıb.

Təkxətli dəmir yolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən, yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənib və proses davam edir. Dəmir yolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanıb. Bu məsafədə yük qatarları hərəkət edir. Soltanlı stansiyasında sərnişinlər üçün gözləmə zalı, rabitə, işarəvermə və digər xidməti otaqlar da yaradılacaq.

Cəbrayılda "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimi də həyata keçirildi. Enerji qovşağının təməlini qoyan dövlət başçısına məlumat verildi ki, Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyalarına, oradan isə Türkiyə enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, 1000 meqavat yükötürmə qabiliyyətinə malik olmaqla ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerjisisteminə qoşmaq, "Xudafərin" və "Qız Qalası" Su-Elektrik stansiyalarının, o cümlədən "bp Cəbrayıl" Günəş-Elektrik Stansiyasının enerjisistemə inteqrasiyasını həyata keçirmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca əhəmiyyətli hadisədir.

Diqqətə çatdırıldı ki, "Cəbrayıl" yarımstansiyasının rəqəmsal idarəetmə sistemi də yaradılacaq.

### Qarabağ mühüm nəqliyyat qovşağına çevrilir

İşğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra beynəlxalq statuslu daha iki aeroport tikilməkdədir. Onlardan biri Laçın rayonu ərazisində inşa olunur, digəri isə Zəngilan hava limanı olacaqdır.

Mayın 26-da Zəngilan rayonuna səfər edən dövlət başçısı və birinci xanım beynəlxalq hava limanında aparılan tikinti işlərinin gedişi ilə də tanış oldular. Artıq perronda torpaq işləri tamamlanıb, uçuş-enmə zolağında asfalt-beton işləri davam etdirilir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən də ağır yük təyyarələrini qəbul edəcək.

Aeroportun hava hərəkəti qülləsinin tikintisinin iyulda tamamlanması planlaşdırılır. Avqustun sonunda isə terminal binasında işlərin başa çatdırılması nəzərdə tutulur. Beynəlxalq standartlara uyğun inşa edilən terminal binası saatda 200 sərnişinə xidmət edəcək. Terminal daxilində VIP zallar, kafelər, tibb xidməti və ofis otaqları yaradılacaq. Avadanlıq və materiallar İtaliya, Almaniya və Türkiyədən gətirilib.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

### Zəngilan məscidi sürətlə tikilir

Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub.

44 günlük Vətən müharibəsi sayəsində işğaldan azad edilən Zəngilandakı tarixi, memarlıq abidələri də erməni vandallığından qurtuldu. Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Prezident və birinci xanım "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə də tanış oldular.

Zəngilan məscidinin bərpasının təməl daşı dövlət başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə ötən il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

İşğaldan azad edilən rayonlarımızda şanlı Vətən müharibəmizi, o cümlədən barbar ermənilərin vəhşi əməllərini əks etdirən Zəfər və İşğal muzeyləri komplekslərinin yaradılması da özünəməxsus əhəmiyyət kəsb edir.

Elə Zəngilanda da dövlət başçısı tərəfindən İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyuldu. İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial Parkdan ibarət olacaq.



### Gələcəyin şəhəri

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura budəfəki səfəri həm də Zəngilan şəhərinin Baş planını təsdiq etməsi ilə əlamətdar oldu.

Dövlət başçısına təqdim olunan Baş plan bu sahədə böyük təcrübəyə malik olan nüfuzlu beynəlxalq şəhərsalma qrupu - İsveçrənin "sa_partners" şirkəti tərəfindən yerli mütəxəssislərin iştirakı ilə hazırlanıb. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək. Belə ki, Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yenidən qurulacaq şəhər əhəmiyyətli nəqliyyat şəbəkəsini müasir infrastrukturu ilə tamamlayacaq. Şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsi nəzərdə tutulur.

Baş planda diqqətçəkən daha bir nüans onun konseptual əsasını "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi şəhər yanaşmalarını təşkil etməsidir. Gələcəyin şəhəri mənzərəli landşaftı, çayətrafı ictimai məkanları, sağlam ətraf mühiti sayəsində sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Şəhərin yerləşdiyi Oxçuçay çayının sahilində geniş parkın, həmçinin dağüstü parkın və daxili yaşıl dəhlizlərin salınması əhalinin asudə vaxtının səmərəli və maraqlı təşkili ilə yanaşı, təmiz ekoloji mühitin formalaşmasına imkan yaradacaq. Burada "ağıllı şəhər" yanaşmasının tətbiqi, müasir texnologiyalardan və bərpaolunan enerji mənbələrindən geniş istifadə edilməsi Zəngilanın yaşayış üçün əlverişliliyini artıracaq, nəqliyyat sistemini ekoloji təmiz, müasir və davamlı edəcək, onu iqtisadiyyatın inkişafı baxımından region səviyyəsində nümunəvi şəhərə çevirəcək.

"Sa_partners" şirkətinin nümayəndələri ilə söhbət zamanı Prezident İlham Əliyev də xüsusilə vurğuladı ki, Zəngilanda biz şəhəri təbiətə inteqrasiya etməliyik və onu park şəhərinə çevirməliyik: "Küçə boyu gəzərkən insanlar sanki özlərini parkda hesab etsinlər. Bəli, parkda, təbiətdə. Yaşayış binalarının konsepsiyası da yüksəkmərtəbəli olmayan, şəffaf, çox gözəl olmalıdır".

### Müasir mütərəqqi texnologiyalara əsaslanmış möhtəşəm məkan

Mayın 27-də isə 30 illik intizardan sonra, nəhayət Vətən torpaqlarımıza qayıdışın başlanğıcı qoyuldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak etdilər və burada yaradılan şəraitlə tanış oldular.

Ağalıda olarkən dövlət başçımız özü də vurğuladı ki, biz azad edilmiş torpaqları müasir mütərəqqi texnologiyalara əsaslanmış böyük bir məkan kimi görmək istəyirik və indi olduğumuz Ağalı kəndinin timsalında bunu görürük.

Həqiqətən də Ağalı kəndi bu gün nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda ilk "ağıllı kənd" konsepsiyası ilə qurulmuş möhtəşəm məkandır.

Eyni zamanda Ağalı bu torpaqlarda əbədi sülhün bərqərar olduğunun əyani təzahür ünvanıdır.

Təsadüfi deyil ki, Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi yaradılıb. Böyük rəmzi mənası olan bu fəvvarəni də Qarabağın və Şərqi Zəngəzurun xilaskarı İlham Əliyev işə saldı.

Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi də yaradılıb. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək.

### "Ağıllı kənd" üçün "ağıllı həllər"

Kənd ağıllı idarəetmə mərkəzi (situasiya mərkəzi) ilə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, "ağıllı kənd" üçün "ağıllı həllər" də nəzərdə tutulub. Məqsəd istismar xərclərinin azalmasından, yaşayış səviyyəsinin isə yüksəldilməsindən ibarətdir. Əsas məsələ yüksək sürətli internetdir. Ağalı kəndindəki internetin sürəti ölkə üzrə orta sürətdən dəfələrlə artıqdır.

Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyaları, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri də var.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Dövlət başçısı Ağalı kəndində "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış oldu.

### Ağalı - bəxtiyar diyar

Mayın 27-də Zəngilanın Ağalı kəndində baş tutan daha bir əlamətdar hadisə isə İlham Əliyevlə Ağalı kənd sakinlərinin görüşü oldu.

Görüş zamanı dövlət başçısı xüsusilə vurğuladı ki, Müstəqillik günü ərəfəsində dirçələn Ağalı kəndində görüşmələrinin çox böyük rəmzi mənası var: "Çünki Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi müstəqilliyimizin möhkəmlənməsindən asılı idi. Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan, ümumiyyətlə, görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir".

Bəli, 44 günlük Vətən müharibəsi sayəsində Azərbaycan həm ərazi bütövlüyünü bərpa etdi, həm də 30 il idi ki, barbar ermənilər tərəfindən talan edilən, viranəyə çevrilən yurdlarımızı bərpa-quruculuq meydanına çevirdi. Bu gün Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir, onlara həyat qayıdır. Onilliklər boyu yurd həsrəti ilə yaşayan vətəndaşlarımızın qısa müddət ərzində öz dədə-baba torpaqlarına qovuşdurulması üçün böyük işlər həyata keçirilir.

Və Zəngilanın "ağıllı kəndi"Ağalı da bu böyük qayıdışın ilk ünvanı, doğma sakinlərinə əbədi qovuşan ilk bəxtiyar diyar oldu.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*




# Zəfər qardaşlarının "TEKNOFEST" Zirvəsi

## Dünya Azərbaycan və Türkiyə həmrəyliyinin daha bir təntənəsinə şahidlik etdi

**Əsrlər boyu sevincini, kədərini birgə bölüşən, sözdə deyil, əməldə də qardaş olan iki dövlət - Azərbaycan və Türkiyə həmrəyliyi, sarsılmaz birliyi bu gün ən yüksək zirvəyə yüksəlib.**

Bu bir həqiqətdir ki, dünyada Azərbaycan və Türkiyə kimi bir-birinə yaxın olan iki ölkə tapmaq mümkün deyil. Əlbəttə ki, bu həmrəyliyi daha da möhkəmləndirən iki qardaş Prezidentin - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın yürütdükləri siyasətdir.

Təkcə son 2 ildə Azərbaycan və Türkiyənin ictimai-siyasi həyatında baş verən mühüm proseslərə nəzər yetirsək, aydın şəkildə görərik ki, iki qardaş Prezident daim birlikdədir: zəfərdə də, quruculuqda da, dünyanı heyran edən layihələri gerçəkləşdirməkdə də...

### İki qardaş yan-yana...

Ötən tarixə qısa ekskurs etsək, buna əyani şahidlik edərik. Ötən ilin oktyabr ayının 26-da Zəfərin Komandanı İlham Əliyev qardaşı Rəcəb Tayyib Ərdoğanla Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər. Həmçinin Zəngilan rayonunda Azərbaycan və Türkiyənin birgə özəl sərmayə layihəsinin təməlini qoydular.

Bu, tarixi Şuşa Bəyannaməsinin imzalanmasından sonra Rəcəb Tayyib Ərdoğanın Qarabağa və Şərqi Zəngəzura ikinci səfəri kimi tarixə düşdü.

Bu il mayın 14-də isə qardaş Türkiyə dünyaya səs salacaq möhtəşəm layihəsini təqdim edir. Türkiyənin qüdrətli lideri Rəcəb Tayyib Ərdoğanın reallaşdırdığı dəniz üzərində tikilmiş dünyanın beşinci hava limanı - Rizə-Artvin aeroportu istifadəyə verildi. Bu təntənəli açılış mərasimini yenə iki qardaş - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan həyata keçirdi.

Bu açılış mərasimindən cəmi 14 gün sonra, 28 May Müstəqillik Günündə Azərbaycan daha bir beynəlxalq mərasimə evsahibliyi etdi. 2018-ci ildən indiyə qədər yalnız Türkiyədə keçirilən "TEKNOFEST" Aerokosmik və texnologiya fistivalı ilk dəfə olaraq Bakıda reallaşdı. Yenə də iki qardaş Prezident Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 104-cü ildönümündə Bakıda keçirilən dünyaşöhrətli "TEKNOFEST Azərbaycan" festivalında əl-ələ verib birlikdə dünyaya sülh müsajı ünvanladılar.

Əlbəttə ki, iki ölkə rəhbərinin bu doğmalığı Azərbaycan və Türkiyə arasındakı ikitərəfli əlaqələrin bütün sahələrdə daha da genişlənməsinə öz müstəsna töhfələrini verir. Bu iki nüfuzlu liderin gələcəyə aydın baxışının, həyata keçirdikləri düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq Azərbaycanla Türkiyə arasında bütün istiqamətlərdə - siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət, humanitar, regional təhlükəsizlik, hərbi və digər sahələrdə əməkdaşlıq ən yüksək səviyyədədir.

### Davamlı inkişaf edən münasibətlər

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın dost və qardaş ölkə Türkiyə ilə bütün sahələrdə əlaqələri davamlı olaraq yüksələn xətt üzrə inkişaf edir. Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı siyasi, iqtisadi, mənəvi, eləcə də geostrateji mahiyyəti ilə ötən dövr ərzində öz təsdiqini tapıb. Türkiyə hər zaman Azərbaycana dəstəyini əsirgəməyib. Bu dəstək şanlı Zəfərimizdən sonra da davam etməkdədir.

"TEKNOFEST Azərbaycan" festivalı isə bir daha dünyaya iki qardaşın birliyinin əbədi və əzəli olduğunu nümayiş etdirdi. Mərasimdə iştirak edən Prezident İlham Əliyev bəyan etdi ki, 30 ildir Azərbaycan xalqı azad yaşayır, müstəqillik şəraitində öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində Türkiyə daim Azərbaycanın yanında olub: "Biz 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir".

İlham Əliyev əminliklə dedi ki, nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış da o qədər möhkəm olacaq. "TEKNOFEST"i iki qardaş ölkənin birliyinin növbəti nümayişi, birliyin real təzahürü adlandıran Prezident elm, inkişaf, bilik, texnologiya bayramının Azərbaycan və Türkiyə gənclərini bir-birinə daha da yaxınlaşdırdığını vurğuladı.

Təbii ki, budəfəki festival Azərbaycan və Türkiyə gənclərinin nümayiş etdirdikləri birlik, həmrəylik fonunda iki qardaş ölkənin münasibətlərinin gələcək inkişafının da aydın mənzərəsini yaratdı. Hazırkı dövrdə elmin, yeni texnologiyaların, yeni ideyaların ölkələrin inkişafında rolunu nəzərə alsaq, hər bir yeniliyə açıq olan iki qardaş ölkənin gənclərin inkişafına göstərdikləri diqqət təqdir olunmalıdır.

Mərasimdə iştirak edən Rəcəb Tayyib Ərdoğan da bəyan etdi ki, Türkiyə və Azərbaycan birlikdə hələ neçə-neçə layihələr gerçəkləşdirəcək və bununla da dünyanı təəccübləndirməkdə davam edəcəklər. Bu layihələr iki ölkənin müasir gəncləri qarşısında yeni üfüqlər açacaq.

### Qardaşlıq münasibətlərinin yeni salnaməsi

Bu bir həqiqətdir ki, Türkiyə-Azərbaycan birliyinin regional, beynəlxalq müstəvidə eynilik təşkil edən milli maraqları, dövlət mənafelərinə uyğun inkişafı dünya diplomatiyasının tərkib hissəsi olmaqla, böyük əhəmiyyət daşıyır. Bu, ilk növbədə təbii ki, mənəvi bağlılıqlarımızdan, ortaq tariximizdən, mədəniyyətimizdən gəlir.

Amma etiraf edək ki, dünyada tarixi bağlılıqlar etibarilə bir-birinə çox yaxın olub, lakin hansısa maraqlara görə bir-birinə düşmən kəsilən, hətta qanlı müharibələr aparan xalqlar, dövlətlər də var. Odur ki, hazırda Azərbaycanla Türkiyə arasındakı münasibətlərin bu səviyyədə olmasının bir əsas səbəbi də iki ölkənin dövlət rəhbərlərinin dostluq, qardaşlıq münasibətləridir. Müasir dünyamızın iki parlaq lideri kimi İlham Əliyev də, Rəcəb Tayyib Ərdoğan da bu səmimi münasibətlərə nail ola biliblər. İki qardaş lider bütün bunları qarşılıqlı güvən, verdikləri vədi tutmaları, səsləndirdikləri sözə imzaları qədər dəyər vermələri ilə bacarıblar.

Bu gün Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır və bu bütün dünya üçün bir nümunədir. Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığını daha sıx bağlarla möhkəmləndirir.

İlham Əliyev - Rəcəb Tayyib Ərdoğan birliyi və həmrəyliyi, dövlət başçılarının bir-birilərinə "qardaşım" deyərək müraciət etmələri dünya birliyi üçün nümunədir. Bu gün dünyada Azərbaycan və Türkiyə dövlətləri kimi əsl qardaş ölkələr göstərmək mümkün deyil. Çoxəsrlik böyük tarixi ənənələrə, dərin köklərə malik olan Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının İlham Əliyev - Rəcəb Tayyib Ərdoğan mərhələsi xalqlarımızın və ölkələrimizin şanlı birlik salnaməsinə pozulmaz yeni və parlaq səhifələr əlavə edir. Bu gün dünya ölkələri arasında çox ciddi bir etimadsızlıq böhranı yaşanır. Belə bir vəziyyətdə Azərbaycan-Türkiyə strateji dostluğu, strateji tərəfdaşlıq münasibətləri dünya ölkələrinə bir model, örnək ola bilər.

"TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı çərçivəsində Azərbaycan və Türkiyə şahinlərinin mavi səmadan dünyaya ünvanladıqları sülh mesajları da bu siyasətin tərkib hissəsi oldu.

Bir sözlə, İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın bu gün reallaşdırdıqları siyasətlə Azərbaycan-Türkiyə arasındakı əbədi, əzəli birliyin, qardaşlıq münasibətlərinin yeni salnaməsi yazılır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***






Bağışlamaq qəlbin böyüklüyüdür

# 36-cı əfv

## İlham Əliyevin əfv sərəncamı bu dəfə 213 ailəyə ikiqat bayram sevinci yaşatdı

**Prezident İlham Əliyevin mayın 27-də imzaladığı əfv sərəncamı 213 nəfərə şamil olundu. Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 168 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edildi, 36 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldıldı. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 3 nəfər cəzadan, həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 6 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olundu.**

### Humanizm məfkurəsi

Respublikamızda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, eləcə də vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi daim diqqət mərkəzində olan dövlətimizin ali məqsədidir. Bununla yanaşı, dövlət səviyyəsində humanizm prinsiplərinə xidmət edən xeyirxah tədbirlərin həyata keçirilməsi, cəzasının müəyyən bir hissəsini çəkən və törətdiyi əməldən peşmançılıq keçirən məhkum olunmuş şəxslərin əfv edilməsi, bağışlanması, onlara yeni şans verilməsi artıq uzun illərdir ki, ənənəyə çevrilib.

Bu ənənənin təməlini qoyan Ulu Öndər Heydər Əliyev əfvetmə institutunu yaradıb, onun təşəbbüsləri ilə bu sahədə bir sıra tədbirlər həyata keçirilib. Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra ölkəmizdə qanunçuluğun təmin olunması ilə yanaşı, humanizm siyasəti çərçivəsində də çoxsaylı tədbirlər görülmüş, o cümlədən əfv və amnistiya təsisatlarının bərpa edilməsi ilə bağlı ən qəti addımlar atılmışdır. Ulu Öndər tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb və bu, 3 mindən artıq məhkuma şamil olunub. Ümummilli Liderin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis tərəfindən 1996-2003-cü illərdə 7 dəfə amnistiya elan edilib, 21 mindən çox məhkum azadlığa buraxılıb, ümumilikdə 78 mindən artıq məhkuma bu amnistiya aktları şamil olunub. Bu humanist addımlar ciddi tərbiyəvi əhəmiyyət daşıyıb, ölkədə cinayətkarlığın səviyyəsinin daha da azalmasını təmin edib.

Azərbaycanda bərqərar olan humanizm siyasətinin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırılıb. Respublikamızın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşüb. Əvvəlcə 1993-cü ildə ölüm hökmü üzərində moratorium qoyulub, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilib.

### On minlərlə ailəyə bəxş olunan sevinc

Təbii ki, cinayət cəzasız qalmamalıdır. Hər bir cinayətin cəzası olmalıdır. Cəza hüququnun reallaşdırılmasında belə ədalətə söykənmək respublikamızda yürüdülən humanizm siyasətinin əsas qayələrindən biridir. Bu siyasəti uğurla həyata keçirən Prezident İlham Əliyev bayram və əlamədar günlərdə imazaladığı əfv sərəncamları ilə törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların bir qismini cəzalarının çəkilməmiş hissəsindən tam azad edib. Azadlığın cəmiyyətin ən ümdə və zəruri şərti olduğunu dəfələrlə vurğulayan Prezident İlham Əliyev əfv sərəncamları ilə cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə xüsusi önəm verdiyini, şəxsi cəmiyyətdən təcrid etmədən islah etmənin daha səmərəli olduğunu bildirib.

Hər zaman mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış edən respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2007-2016-cı illərdə Milli Məclis tərəfindən 4 dəfə amnistiya aktı qəbul olunub. 2007-ci ildə "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında", 2009-cu ildə "Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında", 2013-cü ildə "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında" və 2016-cı ilin mayında 28 May Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında qərarlar qəbul olunub və 40 mindən artıq məhkum müxtəlif növ cəzalardan azad edilib. Mehriban Əliyevanın təşəbbüsü ilə amnistiyaların elan edilməsi cəmiyyətimizin xoş olan əhvali-ruhiyyəsini daha da canlandırıb, neçə-neçə ailəyə sevinc yaşadıb.

Ötən il xalqımız Vətən müharibəsindəki qələbənin birinci ildönümünü böyük təntənə ilə qeyd etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə həmin vaxt Milli Məclis tərəfindən "8 Noyabr Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərarın qəbul edilməsi isə cəmiyyətimizin bayram və sevinc ovqatını daha da yüksəltdi. Zəfər amnistiyası 17 mindən çox şəxsə şamil olundu.

### Əfv olunanların sayı 5885 nəfərə çatdı

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, İnsan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının dövlət başçısına ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq və humanizm prinsipləri əsas götürülərək imzalanmış sərəncamlarla Prezident İlham Əliyev indiyədək 35 əfv sərəncamı ilə 5672 nəfəri əfv etmişdi. Sonuncusu isə Prezident İlham Əliyevin 36-cı əfvidir. Bununla da İlham Əliyev tərəfindən əfv olunanların sayı 5885 nəfərə çatdı.

Müxtəlif səbəblərdən azadlıqdan məhrum edilərək həbsə alınan və artıq cəzalarının müəyyən bir hissəsini çəkən, eyni zamanda islah olunma istiqamətində müsbət nəticələr əldə edən məhkumlar azad cəmiyyətə qovuşdular. Şübhə yoxdur ki, onlar etimadı doğruldub ictimai həyatda öz yerlərini tutacaqlar. Bu, həmin insanlara bundan sonra həyatda öz yollarını düzgün seçməklə bağlı verilmiş çox gözəl şansdır. Bu şansın verilməsi dövlətimizin humanizm siyasətinin mahiyyətindən və məzmunundan doğur.

Beləliklə, Prezident İlham Əliyevin 28 May Müstəqillik Günü ərəfəsində imzaladığı növbəti əfv sərəncamı ilə 213 ailədə ikiqat sevinc yaşandı. Bu sərəncam həm də Azərbaycan dövlətinin həyata keçirdiyi humanizm siyasətinin növbəti təntənəsi oldu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Replika

# Xoruz döyüşdürmək, it boğuşdurmaq qadağan edilib, bəs...

*"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu kimi vacib əməllərə"...*

"Molla Nəsrəddin" satirik məcmuəsinin yaradıcısı Cəlil Məmmədquluzadə jurnalın ilk nömrəsini xalqa bu müraciətlə başlamışdı.

**Bəli, savadsızlıq dövründə, cəhalət zamanında insanlar xoruz döyüşdürməyi, it boğuşdurmağı, dərviş nağıllarına qulaq asmağı çox xoşlayırdılar.**

Bunu həmin dövr üçün təbii saymaq da olardı.

Çünki insanların səviyyəsi, zövqü bunlara uyğun idi.

*Odur ki, Mirzə Cəlil də, Sabir də, Nəriman Nərimanov və digər ədib, jurnalist, şair və ziyalılarımız belə halları qəbul etmir, satira və yumor atəşinə tutaraq tərgitdirməyə çalışırdılar.*

*Əvəzində dünyəvi elmləri, savadlanmağı, təhsil almağı təbliğ edirdilər.*

Zaman dəyişdi, maarifçi demokratlar da, tənqidi realistlər də istəklərinə çatdılar.

Hətta xalq ziyalılarının ardınca gedərək demokratik dövlət, Azərbaycan Xalq Cümhuriyyəti adında müstəqil respublika da yaratdı!

Doğrudur, onun ömrü cəmi 23 ay çəkdi.

Amma qırmızı imperiya laxlayıb parçalananda yenidən müstəqil dövlətlərini bərpa edərək yaşatdılar, qalib və qüdrətli, müstəqil Azərbaycana çevirdilər!

❖ ❖ ❖



**İndi Azərbaycan müstəqil daxili və xarici siyasət yürüdən, demokratik prinsip və ənənələri yaşadan, hamımızın fəxr etdiyi, qürur duyduğu bir ölkəyə çevrilib.**

Ən bahalı avtomobillərə minir, əcnəbilərə heç nədə həsəd aparmırıq...

*Əksinə, PUA-larla elə bir müharibə etdik ki, bütün dünya bizə həsədlə baxdı və bizdən öyrənməyə başladı!*

Bu gün müstəqil demokratik dövlət olaraq bütün sivil qaydalara əməl edirik və edəcəyik də!

**Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da it boğuşdurmaq, xoruz döyüşdürmək qadağan edilib!**

**Bəli, heyvanların hüquqlarını qoruyuruq!**

**Şiddətə qarşı çıxırıq, gender siyasətinə də əməl edirik!**

*Bağçada tərbiyəçinin, məktəbdə müəllimlərin uşağın və ya şagirdin üstünə qışqırmasına, qapaz vurmasına icazə vermirik!*

*Belə hallar olanda telefonla şəklini çəkərək sosial şəbəkəyə qoyur, o qədər şərh yazıb, statuslar paylaşırıq ki, tərbiyəçi də, müəllim də qaçıb gizlənməyə yer tapmırlar!*

❖ ❖ ❖

- Di gəl ki, dərviş nağıllarına qulaq asmağı hələ də tərgitməmişik!
- Di gəl ki, insan döyüşdürməkdən hələ də zövq alırıq!
- Di gəl ki, televerilişlərdə bir-birinin üstünə çımxıranları, qışqıranları, söyənləri (səslərinin efirə getməsini bloklasaq da) şiddət hesab etmirik!

**Bəli, bütün özəl telekanallarda gündə 3-5 saat efirə verilən bəlli verilişləri nəzərdə tuturuq.**

**Bir-bir həmin verilişlərin və aparıcıların adlarını qəsdən çəkmirik!**

**Çünki hansısa yaddan çıxar, deməriк, sonra bizdən inciyər!**

- Maraqlıdır, görəsən nə vaxtadək adam döyüşdürməklə reytinq yığacağıq!
- Nə vaxtadək mənfi qəhrəmanları "ekran qəhrəmanlarına" çevirərək onlara yüz minlərin baxdığı tribuna verəcəyik!
- Nə vaxtadək baş vermiş mənəviyyatsızlıqlardan "maraqlı" verilişlər hazırlayıb, əslində, belələrinin təbliğatçılarına çevriləcəyik!
- Nə vaxtadək məişət davalarını, ailə münaqişələrini ictimailəşdirməklə "aparıcı qəhrəmanlar" yetişdirəcəyik!
- Nə vaxtadək ekranlardan süni göz yaşları süzüləcək!
- Nə vaxtadək saxta "ssenariləri" həqiqi süjetlər kimi xalqa sırıyacağıq!

*Bəs deyilmi?*

*Məgər efiri doldurmaq elə çətindirmi ki, belə bayağı proqramlardan əl çəkə bilmirik?*

*Məgər bizim hamıya nümunə olacaq mənəviyyatlı insanlarımız, vətənpərvər gənclərimiz, xeyirxah, əməlisaleh adamlarımız yoxdurmu?*

*Axı belə reytinq kimə gərəkdir?!*

*Kimlərsə belə "reytinqlər" hesabına ciblərini dolduracaqsa, millətin naqislərini niyə tapıb ortaya çıxararaq "günün qəhrəmanları" sifətində xalqa sırımalıyıq!*

*Xoruz döyüşdürmək, it boğuşdurmaq qadağan edildi, bəs adam döyüşdürmək nə vaxt dayandırılacaqdır?!.*

**Kim onlara dur deyəcək?!**

**Kim onlara bəs deyəcək?!**

❖ ❖ ❖

**Bu gün Azərbaycanın "dərviş nağıllarına" (həmin proqramlardakı uydurma və qondarma süjet və hadisələri nəzərdə tuturuq) qulaq asan vaxtı deyil!**

*Axı quruculuğu ilə, XXI əsrin ən yeni müharibəsi ilə, Qarabağı cənnətə çevirən əməlləri ilə dünyanı heyrətə gətirən Azərbaycana belə qondarma, mənəviyyatsız, antiqəhrəmanların cövlan etdiyi, "aparıcıların" bir aktyorun tribunasına çevrildiyi verilişlər kimə və nəyə xidmət edir!*

**Bəlkə ekrandan sonra bir güzgüyə də baxaq?**

**Və özümüzə sual verək:**

**Bu bizikmi?**

**Bu bizə layiq verilişlərdirmi?**

**Axı artıq XXI əsrdir!**

**Bəxtiyar SADIQOV**

## BVF-nin Azərbaycan üzrə missiya rəhbəri İqtisadiyyat Nazirliyində olub



**İqtisadiyyat Nazirliyində Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri Çad Steynberqlə görüş keçirilib.**

Görüşdə Azərbaycanda həyata keçirilən antiinflyasiya tədbirləri, milli prioritetlər, 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyası, dövlət müəssisələrində idarəetmənin, həmçinin sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verilib.

Tərəflər Azərbaycanın makroiqtisadi göstəriciləri və qarşıdakı dövr üçün proqnozlar, aparılan islahatlar, qlobal çağırışların iqtisadiyyata təsirləri barədə fikir mübadiləsi aparıblar.

## Mərkəzi Bankın valyuta ehtiyatları artıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi açıqlanıb.**




AZƏRTAC AMB-yə istinadla xəbər verir ki, bu il iyunun 1-nə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 7 milyard 230,7 milyon ABŞ dolları təşkil edib. Bu, ötən ayın eyni dövrü ilə müqayisədə 144,9 milyon dollar çoxdur.

## Azərbaycan nefti bahalaşmaqda davam edir

**Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,68 dollar artaraq 127,48 dollar olub.**

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti martın 9-da (135,99) qeydə alınmışdı.

## Azərbaycan nümayəndə heyəti Türkiyədə su idarəedilməsi prosesi ilə tanış olub

**Kənd Təsərrüfatı Nazirliyinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə həyata keçirdiyi "Kənd təsərrüfatının davamlı inkişafı naminə aqrar sahədə su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində təcrübə mübadiləsinin aparılması məqsədilə Azərbaycan nümayəndə heyətinin Türkiyə Respublikasına səfəri başlayıb.**

Nümayəndə heyətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin Regionların inkişafı şöbəsinin müdir müavini İlqar Poladov, Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firidun Tağıyev, İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyi sədrinin müşaviri Mehman Rzayev, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Meliorasiya və su təsərrüfatı istismarı şöbəsinin müdir müavini Qulu Kərimov və Sudan İstifadəedənlər Birlikləri üzrə iş sektorunun müdiri Akif Quliyev iştirak edir.

30 may-4 iyun tarixlərini əhatə edəcək səfər proqramı çərçivəsində Türkiyənin Ankara, Urfa, Qazientep, Manisa, İzmir və digər şəhərlərində su idarəedilməsi ilə məşğul olan qurum rəsmiləri, elmi-tədqiqat mərkəzləri ilə görüşlər, sahə səfərləri nəzərdə tutulub. İlk olaraq Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin Dövlət Su İşləri İdarəsinin müdiri Lütfi Akça və digər rəsmilərlə görüş keçirilib. Dövlət Su İşləri İdarəsinin mütəxəssisləri tərəfindən görülmüş işlər, idarəetmə yanaşmaları, torpaqların konsolidasiya edilməsi, suvarma sistemlərinin qurulması, sudan istifadəedənlər birliklərinin fəaliyyətləri barədə təqdimatlar edilib.

## Bakı və Abşeronda "Kənddən şəhərə" həftəsonu yarmarkaları keçiriləcək

İyunun 4-5-də Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Kənddən şəhərə" həftəsonu yarmarkaları təşkil olunacaq.

Nazirliyin yaydığı məlumata görə, yarmarkalar Bakı və Abşeron ərazisində üç fərqli ünvanda keçiriləcək. "Kənddən şəhərə" həftəsonu yarmarkalarının təşkilində əsas məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Budəfəki yarmarkalarda ümumilikdə 45 regiondan 100-ə yaxın fermer iştirak edəcək. Onlar 80-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, yarmarkalar fermerlər üçün tamamilə ödənişsiz şəkildə təşkil olunacaq. Belə ki, yarmarkada iştirak edəcək fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi və digər avadanlıqlarla təmin olunacaqlar. Həmçinin məhsullarını yarmarka ünvanlarına çatdırmaqda çətinlik çəkən fermerlərə logistik dəstək göstəriləcək.

"Kənddən şəhərə" yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun "Gənclik" stansiyasının çıxışı)
- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A.

# Sahibkarın sahibi olanda

### Azərbaycanda özəl sektorun əsas güvənc mənbəyi dövlət dəstəyidir

**Dünya təcrübəsi göstərir ki, iqtisadi fəaliyyət sərbəst olarsa, ölkə daha tez və sürətlə inkişaf edər. Bu səbəbdən Azərbaycanın yenidən müstəqilliyinə qovuşduqdan sonra bazar iqtisadiyyatı inkişaf yolunu seçməsi təsadüfi deyildi.**



Ancaq müstəqilliyin ilk illərində imkanımız məhdud idi. Bazar iqtisadiyyatına keçmək və sahibkarlığı inkişaf etdirmək üçün ilk növbədə onun hüquqi bazası yaradılmalıydı. Odur ki, hələ o illər ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən qanunlar qəbul edildi.

Amma bu da kifayət deyildi. Qanunvericilik bazası yaradılsa da, sahibkarlığın inkişafı üçün dövlət dəstəyinə ehtiyac vardı. Çünki yeni formalaşmağa başlayan sahibkarların bizneslərini inkişaf etdirmək üçün əllərində sərmayələri yox idi. O üzdən kiçik və orta sahibkarlığa dövlət köməyi ilə bağlı müxtəlif dövrləri əhatə edən sənədlər qəbul olundu. Ardınca dövlət mülkiyyətinin özəlləşdirilməsinə başlandı. Birinci olaraq fəaliyyətini dayandırmış, yaxud qismən fəaliyyət göstərən kiçik və orta sənaye və xidmət müəssisələri özəlləşdirildi. Qısa bir zamanda həmin sahədə ciddi dönüş yarandı. Sahibakarlar əhaliyə daha yaxşı xidmət göstərməklə yanaşı, yeni iş yerləri açdı, dövlət büdcəsinə vergi ödədi, ümumiyyətlə, ölkədə iqtisadi fəaliyyət canlanmağa başladı.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi islahatlar isə sahibkarlığın inkişafında yeni dönəmin başlanğıcı oldu. Dövlət başçısı tərəfindən imzalanan sənədlər həm də sahibkarlığın inkişafına mane olan bütün neqativ halların aradan qaldırılmasını təmin etdi. İlk növbədə dövlət qurumları tərəfindən aparılan əsassız yoxlamalar ləğv olundu və bununla sahibkarlıq fəaliyyəti ilə məşğul olanların işinə məmur müdaxiləsi aradan qaldırıldı.

Ölkəmizdə bu sahədə aparılan iqtisadi islahatlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. 2021-ci ildə nüfuzlu beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə ön sıralarda yer aldı. Azərbaycan Dünya Bankı tərəfindən ən islahatçı 10 ölkə sırasına çıxdı, Heritic Fondunun 2021-ci ilin nəticələrinə əsasən elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə 178 ölkə arasında 38-ci pilləyə yüksəldi.

Amma sahibkarlığın inkişaf göstəricisi ilk növbədə onun fəaliyyətinin nəticəsi ilə ölçülür. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-aprel aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş mallar və göstərilmiş xidmətlərin həcmi 2,7 faiz artaraq 27,4 milyard manat təşkil etmişdir. Həmin dövr sənayedə qeyri-dövlət sektorunun payı 88 faiz olmuşdur.

Başqa bir nəticə isə ölkədə yerli, birgə və xarici investisiyalı müəssisələrin sayının artmasıdır. Həmin müəssisələrin açılması ölkə iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, məşğulluğun təmin edilməsinə də yol açır. Məsələn, cari ilin birinci rübündə təzə iş yerlərinin 10,4 faizi yeni yaradılan özəl müəssisələrdə açılmışdır.

Yaxud götürək aqrar sektoru. Fermerlər və fərdi sahibkarlara verilən dövlət dəstəyi sayəsində bu gün bir sıra ərzaq məhsulları ilə özümüzü tam təmin edə bilirik. Hazırda əhalinin qoyun, mal və toyuq ətinə olan tələbatının yerli istehsal hesabına ödənilməsi 80-100 faiz civarındadır. Bununla yanaşı, süd və yumurta istehsalında da yüksək uğurlar əldə olunub. Meyvə və tərəvəz istehsalında qazanılan nailiyyətlər sayəsində isə yerli tələbatı ödəməklə yanaşı, xarici bazara da məhsul ixrac edirik. Ümumiyyətlə, son dövrlər qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının çəkisi sürətlə artır.

Bu gün ölkəmizdə sahibkarlıq özünün yüksək inkişaf mərhələsini yaşayır. İndi sahibkarlarımız həm də investor kimi çıxış edirlər. Onlar istər ölkəmizdə, istərsə də xaricdə kapital qoyuluşu həyata keçirib yeni biznes fəaliyyəti ilə məşğul olurlar.

Torpaqlarımızın işğaldan azad olunması da sahibkarlarımıza təzə fəaliyyət sahəsi açır. Bu günə qədər 1000-ə yaxın yerli sahibkar işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəaliyyətlə məşğul olmaq barədə aidiyyəti dövlət qurumlarına müraciət edib. Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərdə sahibkarların fəaliyyət göstərməsinin vacib olduğunu bildirərək demişdir: "Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar".

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Qardaşlığın güc simvolu

## "TEKNOFEST-2022" Azərbaycan və Türkiyənin müasir kreativ gəncliyi qarşısında yeni üfüqlər açdı











**Ötən həftə paytaxtımız Bakı daha bir möhtəşəm tədbirə, Azərbaycan-Türkiyə qardaşlığının əyani təzahürü olan "TEKNOFEST" festivalına layiqli evsahibliyi etdi.**

Dörd gün davam edən festival kiçikdən böyüyə hər kəsin marağına səbəb oldu. Bunu hələ festival başlamamış onlayn bilet satışının sürətindən də görmək mümkün idi. 26-29 may tarixlərində keçirilən festivalın açılışına bir gün qalmış Türkiyənin Təkirdağ əyalətinin Çorlu rayonundan səmaya qalxan Bayraktar "Akıncı" Silahlı İnsansız Hava Aparatları 2 min km məsafəni uğurla qət edib Gürcüstan üzərindən Azərbaycana eniş etdi. Bakı səmalarında maraqlı anlar yaşandı. Paytaxt sakinləri qardaş Türkiyənin şahinlərinin və "Akıncı"nın aviaşousunun məşqlərinə zövqlə tamaşa edərək qürur hissi yaşadılar...

"TEKNOFEST-Azərbaycan" festivalı çərçivəsində müxtəlif müsabiqələr, sərgilər, aerobatika komandalarının nümunəvi pilotaj uçuşları, böyük səhnədə incəsənət xadimlərinin çıxışları, şaquli külək tuneli, su attraksionları, uçuş simulyatorları, robotlar nümayiş olundu.

### Əzmkar duruşlu hərbi texnikaların nümayişi

Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalı olan "TEKNOFEST" 2018-ci ildən keçirilir. İlk dəfə 2021-ci ildə Azərbaycanın iştirak etdiyi festivalın bu il ölkəmizdə təntənəli şəkildə qeyd edilməsi hər kəs kimi bizim də maraq dairəmizdə idi. Jurnalist marağı ilə festivalın keçirildiyi məkana - "Baku Crystal Hall"a baş çəkib həm müasir texnologiyalar, həm də onların ixtiraçıları ilə yaxından tanış olduq.

Bayraq meydanı ərazisinə yaxınlaşdıqda tədbirə marağın yüksək olduğu bir daha əyani şəkildə görünürdü. Burada uşaqdan tutmuş yaşlıya qədər hər kəs var idi. "Baku Crystal Hall"a doğru irəlilədikcə açıq havada müxtəlif stendlər görmək mümkün idi. Burada hərbi texnikalar nümayiş etdirilirdi. İnsanların daha sıx toplaşdığı yerə çatanda bəlli oldu ki, burada Vətən müharibəsindən dillər əzbəri olan, müharibə zamanı zəfərimizin əsas atributlarından birinə çevrilən "Bayraktar"lar sərgilənir. İrəlilədikcə Türkiyə və Azərbaycan istehsalı olan "Orbiter-3", "Orbiter-4" pilotsuz uçuş aparatları, "Turaz", "Bayquş" dronları, eyni zamanda "Quzğun" zərbəendirici, "Qırğı" kəşfiyyat PUA-sı, "Land Rover" xüsusi operativ maşını, mobil rabitə sistemi, mexaniki mina təmizləmə texnikası və vertolyot gördük. Bundan başqa, Azərbaycanın xarici şirkətlərlə birgə istehsalı olan düşmənin şəxsi heyətinin və hərbi texnikasının məhv edilməsi üçün "Matador", "Marauder" kimi hərbi maşınları görmək olurdu. Ən maraqlısı isə bu hərbi texnikaların nümayişi üçün texnika barədə məlumat verən müxtəlif rütbəli zabitlərimizin yer alması idi. Hiss olunurdu ki, insanları bu texnikalara yaxınlaşmağa sövq edən həm də o qəhrəmanlarımızın iradəli duruşu, Azərbaycan igidləri ilə yaxından tanış olmaq, söhbət etmək marağı idi. Stendlərə yaxınlaşanların əksəriyyəti hərbçilərimizi Vətən müharibəsində iştirakla bağlı və həmin texnikanın müharibədə necə istifadə edilməsi barədə suallara tuturdular. Onlar isə hər kəsi səmimiyyətlə qarşılayır, bütün suallara aydın şəkildə cavab verirdilər.

### Universitet tələbələri, şagirdlər və alimlərin ixtiraları

Həm texnikalara tamaşa edə-edə, həm də maraqlı söhbətlərə qulaq asa-asa insan sıxlığından çıxıb "Baku Crystal Hall"a doğru addımlayırıq. İçəri daxil olduğumuz zaman başqa bir mənzərənin şahidi oluruq.

Yavaş-yavaş ətraf işıqlanır və mərkəzdə sırayla müxtəlif layihələrin stendlərinin yer aldığını görürük. Heç bir layihəni gözdən kənar qoymamaq üçün elə ən başdan, birinci sıradan başlayaraq stendlərdəki layihələrlə tanış oluruq. Burada 3 kateqoriya üzrə layihələr yer almışdı. A kateqoriyası - məktəblər, B kateqoriyası - universitetlər, C kateqoriyası isə fərdi şəxslərə aid layihələr idi. Burada robotexnika, aqrar texnologiyalar, sosialyönümlü texnologiyalar, pilotsuz uçuş aparatları, "Yaşıl" texnologiyalara aid layihələr yerləşdirilib. Layihələr universitet tələbələri və şagirdlər tərəfindən hazırlanmış və özləri tərəfindən də qürur və həvəslə təqdim olunurdu.

"TEKNOFEST Azərbaycan" çərçivəsində sərgidə AMEA-nın müxtəlif institutlarının alimləri tərəfindən hazırlanmış keçilməz və təhlükəli dağ relyefində radiasiya monitorinqini aparan, yol tikintisi, mədən işləri və s. xüsusi məqsədlər üçün partlayıcı maddələrin uzaqdan idarə olunmasına imkan verən cihaz, müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarının adaptasiya oluna bilən idarəetmə sisteminin funksiyalarını həyata keçirmək üçün mikrokompüter, süni intellektin tətbiqi ilə ağciyər xərçəngi xəstələrini 80-90 faiz dəqiqliklə identifikasiya etməyə imkan verən yeni model, hərbi təyinatlı yağlar və digər elmi nailiyyətlər təqdim olunurdu.












İstənilən layihə haqqında, məqsədi barədə məlumat almaq mümkün idi. Təbii ki, stendlərdə vacib informasiyalar yer alırdı.

### Səmamızı bəzəyən möhtəşəm pilotaj uçuşları

"Baku Crystal Hall"da layihələri gözdən keçirdikdən sonra yenidən açıq havada müşahidələrimizi davam etdiririk. Ərazidə azyaşlılar üçün əyləncə attraksionu da düzəldilmişdi. Açıq havada üzü dəniz istiqamətində festivala baş çəkənlərin dincəlməsi, həm su şousunu, həm də pilotaj uçuşlarını rahat izləmələri üçün oturacaqlar quraşdırılmışdı. Birdən aparıcının hamını su şousuna dəvət etməsi ilə insanlar dəniz istiqamətində axın etməyə başladılar. Hər kəs şounu daha aydın izləmək üçün irəliləyərək dənizə daha yaxın olmağa çalışırdı. Maraqlı su şousundan sonra hava şousunun başlayacağı ilə bağlı elan verildi. Biz isə ərazidə gəzməyə davam edirdik. Burada uşaqların, eyni zamanda böyüklərin vaxtlarının maraqlı keçirmələri üçün şərait yaradılmışdı. Elektron qurğuda "Bayraktar"ı idarə etmək, PUA ilə bağlı sual-cavab oyununda iştirak etmək də mümkün idi. Əyləncələri saymaqla bitmirdi. Amma hər kəsin səbirsizliklə gözlədiyi səhnə şahinlərin uçuşları idi. Bir qədər sonra iki qardaş ölkənin qırıcı təyyarələrinin şousu başladı. Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin "Türk Ulduzları" və "Solo Türk" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları növbə ilə nümayiş olundu. Hər kəs dəniz sahilində dayanaraq qəhrəman hərbçilərimizin hava şousunu fəxarətlə izləyir, onları salamlayırdı. Uçuşlar zamanı texnikaların xarakteristikaları və pilotlar barədə müxtəxəssislər tərəfindən məlumatlar verilirdi, həmçinin türkiyəli pilotlarla birbaşa bağlantılar yaradılırdı. Bir saatdan çox davam edən hava şousu möhtəşəmliyi ilə bərabər, həm də içimizdə qəribə, ifadə edilə bilməyən qürur, fəxarət hissi yaradırdı. 44 günlük Vətən müharibəsindəki hər günü bir zəfər olan günləri yenidən yaşayırdıq.

### "TEKNOFEST Azərbaycan"- birliyin rəmzi

Ümumiyyətlə, dörd gün davam edən festivalda son günə qədər müxtəlif şoular nümayiş etdirildi, əyləncəli proqramlar tətbiq olundu.

Azərbaycanın Müstəqillik Günü - mayın 28-də Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "TEKNOFEST 2022"nin qaliblərini mükafatlandırmaq üçün festivalda iştirak etdilər. Bu əlamətdar gündə Türkiyə Prezidentinin Azərbaycana səfəri, qaliblərin mükafatlandırılması heç də təsadüfi deyildi. Bu bir daha Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduğunu, pis gündə, yaxşı gündə iki qardaş ölkənin bir-birinə dəstəyinin təzahürü idi. Festivalda çıxış edən dövlətimizin başçısı da qeyd etdi ki, biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və edəcəyik ki, qarşıda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaq.

Qeyd etdiyimiz kimi, bu möhtəşəm tədbir bir daha türkün sarsılmaz gücünü nümayiş etdirdi. Müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan ruh, ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək. Yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyi olan "TEKNOFEST Azərbaycan" festivalı başa çatsa da, bu müttəfiqlik, birlik bütün sahələrdə daim özünü göstərəcək, bu qardaşlıq əbədi yaşayacaq!

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Heydər Əliyev Mərkəzinin parkında "Uşaq festivalı" keçirilib



**İyunun 1-də Heydər Əliyev Mərkəzinin parkında "Uşaq festivalı" keçirilib.**











AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi, Nərimanov Rayon İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə keçirilən tədbirə giriş sərbəst olub. Festivalda uşaq evlərinin sakinləri və internat məktəblərinin şagirdləri də iştirak ediblər.

1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil olunan festival balacalara bayram əhvalı yaşatmaqla yanaşı, həm də onların xoşbəxt, sağlam böyüyüb yetişməsinə, təhsil almasına, layiqli vətəndaş kimi formalaşmasına cəmiyyətin diqqətini bir daha yönəltmək məqsədi daşıyıb.

Festivalda müxtəlif əyləncə və maarifləndirici proqramlar təqdim olunub. Hər bir uşaq öz marağına uyğun əyləncə seçib asudə vaxtını səmərəli keçirə, istedadını nümayiş etdirə bilib. Parkın ərazisi müxtəlif mövzular və əyləncə növləri üzrə bölünüb. Belə ki, idmansevərlər üçün miniturnirlər, yarışlar, interaktiv oyunlar təşkil olunub, şahmat yarışlarında iştirak etmək, Olimpiya çempionları ilə görüş fürsəti yaradılıb.

N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası üçün ayrılmış meydançada kosmos, planetlər barədə maraqlı faktlar təqdim edilib. Yüksək texnologiyaya maraq göstərən uşaqlar interaktiv dərslərdə dronların hazırlanma prosesi ilə də tanış olmaq imkanı qazanıblar. Arxeoloji meydançada bu sahəyə maraq göstərən uşaqlar şərti axtarış apararaq qum altından müxtəlif arxeoloji tapıntı maketləri aşkar etmək fürsəti qazanıb. Minifermada isə heyvanlarla ünsiyyət qurmaq imkanı yaradılmışdı.

Festival çərçivəsində Azərbaycan Avtomobil Federasiyası uşaqlar üçün yol hərəkəti qaydalarına dair təlim təşkil edib. İncəsənət zonası, kitabsevərlər guşəsi, rəqs meydançaları, kater yarışı, konsert proqramları və digər əyləncələr balacalara gözəl xatirəyə dönəcək anlar yaşadıb. Keçirilən müsabiqələrdə qaliblərə və iştirakçılara müxtəlif hədiyyələr təqdim olunub.

Beləliklə, Heydər Əliyev Mərkəzinin parkı gün ərzində həm əyləncə, həm də yaradıcılıq məkanı kimi uşaqların ixtiyarına verilib və unudulmaz bayram sevinci yaşanıb.

"Uşaq festivalı"na gələn uşaqların bəziləri öz təəssüratlarını AZƏRTAC-la bölüşüblər.

Onlardan biri olan Zəhra Qəhrəmanlı deyib: "Uşaq festivalı" mənim çox xoşuma gəldi. Bu festivalın təşkilatçılarına təşəkkürümü bildirirəm. Burada uşaqlar üçün çox maraqlı proqramlar təşkil edilib. Mən şəhid nəvəsiyəm, bütün uşaqların, xüsusilə şəhid və qazi övladlarının bayramını təbrik edirəm".

Digər iştirakçı Həsən Zərbəliyev Heydər Əliyev Mərkəzinin parkını çox bəyəndiyini, buraya gəldiyi, dostları ilə gözəl vaxt keçirdiyi üçün çox sevincli olduğunu deyib. O bildirib ki, "Uşaq festivalı"nda onlar üçün təşkil edilən bütün əyləncə və maarifləndirici proqramlar çox maraqlı idi.

Məryəm Nəcəfzadə isə bütün uşaqları 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edib. Festivalda iştirak etdiyi üçün çox xoşbəxt olduğunu deyib. "Burada dostlarımla birgə əyləncəli vaxt keçirdim. Uşaq bayramı mənim ən çox sevdiyim günlərdən biridir. Bu bayram münasibətilə bütün uşaqları, şəhidlərimizin övladlarını da təbrik edirəm", - deyə Məryəm Nəcəfzadə söyləyib.

Nigar Hüseynli isə sevincini bu sözlərlə ifadə edib: "Festivalı çox bəyəndim, burada çox əyləndik. Digər uşaqlarla söhbətləşmək, oynamaq mənim üçün çox xoş idi. Mən istəyirəm ki, hər gün uşaqların bayramı olsun. Belə günlərdə özümü həmişə yaxşı hiss edirəm. Sabah müəllimlərimə də festival barədə danışacağam".









# Leyla Əliyeva Gəncədə uşaqlara sevinc bəxş etdi









Gəncə şəhərində valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə bayram şənliyi keçirilib.

AZƏRTAC xəbər verir ki, şənlikdə Gəncə Uşaq Evi və SOS Uşaq Kəndləri Gəncə filialının nəzarətində olan, eləcə də şəhid ailələrindən 150-dən çox uşaq iştirak edib. Tədbirdə uşaqlar üçün bayram süfrəsi açılıb, animator və maskotlar musiqi sədaları altında balaca dostları əyləndirib, onlar üçün maraqlı oyunlar təşkil edib, əsl bayram əhvali-ruhiyyəsi yaşadıblar.

Qeyd edək ki, Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan və aztəminatlı ailələrdən olan uşaqlara qayğı və diqqəti ilə seçilən Leyla Əliyeva tərəfindən onlara ardıcıl olaraq müxtəlif şəkildə yardım və dəstək göstərilir.

# Uşaqların sağlam, hərtərəfli şəxsiyyət kimi formalaşması üçün kompleks tədbirlərin görülməsi vacibdir

İyunun 1-də Heydər Əliyev Mərkəzində "Erkən Uşaqlıq Dövründə İnkişaf (EUDİ) strategiyası: mövcud təcrübə və gələcəyə baxış" mövzusunda beynəlxalq konfrans keçirilib.

Azərbaycanda uşaqların hərtərəfli inkişafı ilə bağlı EUDİ xidmətlərinin gücləndirilməsi və onların yeni inkişaf mərhələsinə keçirilməsi üçün ictimai müzakirələr aparmaq, sektorlararası koordinasiyanı təmin etmək, aidiyyəti qurumlar tərəfindən bu istiqamətdə birgə icra olunacaq tədbirləri müəyyənləşdirmək məqsədilə təşkil olunan konfrans Heydər Əliyev Fondunun, BMT-nin Uşaq Fondunun (UNICEF) və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı, Avropa İttifaqının maliyyə dəstəyi ilə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, 2021-ci ilin aprelindən Heydər Əliyev Fondu, BMT-nin Uşaq Fondu - UNICEF-in Azərbaycandakı nümayəndəliyi, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icrasına start verilmiş EUDİ Milli Strategiyası müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması və aidiyyəti dövlət qurumları arasında koordinasiyanın qurulmasında mühüm rol oynayır.

Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri, Milli Məclisin deputatı Soltan Məmmədov bildirib ki, uşaqların bioloji və psixi sağlamlığı, erkən yaşlardan intellektual, fiziki və əqli inkişafı, emosional dözümlülüyü və sosial rifahı onların şəxsiyyət kimi formalaşmasında xüsusi əhəmiyyət daşıyır. Bu mənada erkən yaş dövründə uşaqlara düzgün qayğı və diqqətin göstərilməsi çox vacibdir. Hazırlanacaq EUDİ strategiyası aidiyyəti təşkilatların bu istiqamətdə səylərini birləşdirəcək vahid platforma və daha təsirli vasitə olacaqdır. Deputat ölkəmizdə səhiyyə, sosial xidmətlər, təhsil sahələrində genişmiqyaslı islahatlar və tədbirlərin həyata keçirildiyini vurğulayan deputat hökumət tərəfindən icra olunan dövlət proqramları, eyni zamanda qanunvericilik çərçivəsində Azərbaycanda xüsusi xidmətə ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqlara göstərilən xidmətin inkişafı üçün həm qanunvericilik bazasının davamlı təkmilləşdirilməsi, həm də dövlət proqramlarının icrası istiqamətlərində nəzərəçarpacaq işlərin görüldüyünü diqqətə çatdırıb.

EUDİ layihəsinin mütəxəssisi, "Regional İnkişaf" İctimai Birliyinin mütəxəssisi Fərid Süleymanov erkən yaşda insanın əqli, fiziki və emosional sferasında inkişafının əsasının qoyulduğunu, bu səbəbdən həmin yaşda uşaqlara bəsləyici qayğı göstərməyin, yəni, onların düzgün qidalanmasını təmin etmək, sağlamlıqlarının qeydinə qalmaq, onlara həssas münasibət bəsləmək, erkən öyrənmək üçün imkanlar yaratmağın, təhlükəsizliklərinin təmin olunmasının mühüm əhəmiyyət daşıdığını deyib. Qeyd olunub ki, uşaqların gələcəkdə sağlam, hərtərəfli şəxsiyyət kimi formalaşması üçün fərd, ailə, cəmiyyət və dövlət səviyyəsində kompleks tədbirlərin görülməsi önəmlidir.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Muxtar Məmmədov uşaq inkişafının 4 əsas istiqamətinin - fiziki, əqli, əxlaqi və estetik inkişafının dövlətin diqqət mərkəzində olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə məktəbəqədər təhsilin rolundan danışan nazir müavini qeyd edib ki, ölkəmizdə fəaliyyət göstərən 1825 məktəbəqədər təhsil müəssisəsi 127 min uşağı əhatə edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin erkən uşaqlıq dövründə uşaqların sosial inkişafının təmin edilməsi və xidmət sahəsinin genişləndirilməsi məqsədilə tədbirlər həyata keçirdiyini bildirən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev bu ilin noyabr ayından uşaqların müəssisələrə düşməsinin qarşısının alınmasının və müəssisədə yaşayan uşaqların ailə mühitində böyüməsi, təminedici himayədar ailə modelinin tətbiqinə başlanılacağını diqqətə çatdırıb.

O, həmçinin bildirib ki, ölkəmizdə müəssisələrdə yaşayan uşaqların övladlığa götürülməsini sitimullaşdırmaq məqsədilə bir sıra tədbirlər görülür.

Səhiyyə nazirinin müavini İlqar Qasımov erkən uşaqlıq dövrünün 0-8 yaşları əhatə etdiyini, bu illər ərzində uşağın inkişafının təkrarolunmaz sürətlə getdiyini və məhz bu səbəbdən həmin illərin çox əhəmiyyətli olduğunu vurğulayıb. Deyib ki, bu zaman uşağın beyni hər saniyə inkişaf edir. Ona görə də məhz bu dövr ərzində uşağın sağlamlığına və inkişafına yönəldilən qayğı nə dərəcədə çox olsa, onun bütün həyatının təməli bir o qədər möhkəm qoyulmuş olur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva komitənin dövlətin uşaq siyasətini həyata keçirmək istiqamətində qanunvericiliyin təkmilləşməsinə xüsusi önəm verdiyini qeyd edib. O, komitənin regionlarda uğurla fəaliyyət göstərən ailə və uşaqlara dəstək mərkəzləri haqqında məlumat verib.

Postmünaqişə dövründə müharibədən əziyyət çəkmiş uşaqların psixososial reabilitasiyasına xüsusi diqqət göstərilməsinin əhəmiyyətini vurğulayan A.Sofiyeva şəhid və qazi ailələrində böyüyən uşaqların psixoloji və emosional vəziyyətinin sabitliyinin qorunmasına və yaranmış psixoloji travmaların reabilitasiyası istiqamətində səylərin daha da artırılmasının vacibliyini diqqətə çatdırıb.

Konfransda çıxış edən UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens bildirib ki, yaxşı qidalanma, erkən stimulyasiya və himayə həyatda yalnız bir dəfə baş verən sürətli təkamül dövrünə qədəm qoyan körpə beyninin inkişafı üçün çox vacibdir. Erkən uşaqlıq dövrü inkişafı hökumətlərin və bizneslərin sərmayə qoya biləcəkləri ən yaxşı sahələrdəndir.

Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko diqqətə çatdırıb ki, ötən il Aİ tərəfindən təsdiqlənən Uşaq Hüquqları üzrə Strategiya qurumu qlobal miqyasda uşaqları dəstəkləmək, qorumaq və gücləndirmək üçün məcbur edən qlobal ölçüləri özündə ehtiva edir. Bildirib ki, Avropa İttifaqı Azərbaycanda erkən uşaqlıq dövründən etibarən həssas uşaqlara dəstək olmaqdan məmnundur.

Konfransa onlayn qoşulan EUDİ üzrə beynəlxalq ekspertlər - UNICEF-in EUDİ üzrə assosiativ direktoru Erinna Dia, EUDİ üzrə baş məsləhətçisi Chemba Raghavan, Kral Uşaq Xəstəxanasının İcma Uşaq Sağlamlığı Mərkəzinin direktoru Frank Oberklaid erkən uşaqlıq dövründə inkişaf, erkən müdaxilə, azyaşlı uşaqların inkişafı üçün mühitin uyğunlaşdırılması, EUDİ siyasətinin formalaşdırılması üçün sektorlararası əməkdaşlığın vacibliyi, ehtiyaclar və həyata keçiriləcək fəaliyyətlər barədə fikirlərini bölüşüblər.

Müxtəlif panel iclaslarında işini davam etdirən konfransda mütəxəssislər tərəfindən uşaqlar və hamilə qadınlar üçün patronaj xidmətinin əhəmiyyəti, inteqrasiya edilmiş sosial xidmətlər modeli, EUDİ üzrə nümunəvi beynəlxalq təcrübələr, EUDİ-də əlillik və inklüziya, məktəbəqədər təhsilin hazırkı vəziyyəti və perspektivlər, sosial xidmətlərin əhəmiyyəti, uşaq hüquqlarının müdafiəsi, icma təşəbbüsləri, valideynlik səriştələri və digər mövzularda səmərəli təkliflər səsləndirilib.

Sonda EUDİ-nin həyata keçirilməsi, gələcək fəaliyyətlərin yol xəritəsinin işlənib hazırlanması və hökumətin müxtəlif sektorlarında bu fəaliyyəti təbliğ edəcək işçi qrupun yaradılmasına çağırış edən birgə bəyannamə qəbul olunub.

Konfransın təşkili Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə UNICEF tərəfindən həyata keçirilən "Azərbaycanda həssas qruplara daxil olan uşaqlar üçün İnteqrasiya olunmuş icma əsaslı sosial xidmətlər" üzrə üçillik proqramın yekunlarına təsadüf edib. Proqramın əsas sütunlarından biri icma əsaslı EUDİ xidmətləri vasitəsilə Erkən Uşaqlıq Dövründə İnkişaf təşəbbüsünün təşviqi və pilot olaraq tətbiqini nəzərdə tutur. Proqram çərçivəsində minlərlə uşaq icma əsaslı erkən təhsil xidmətlərindən, sosial xidmətlərdən və patronaj tibb bacılarının ev ziyarətlərindən faydalanıb.

Dünya gündəmi

# "Turkey" yox, "Türkiye"!

## Qardaş ölkənin beynəlxalq adı - xarici dillərdə yazılışı dəyişdirildi

**Qardaş Türkiyə Respublikasının beynəlxalq adı dəyişdirilir. Rəsmi Ankaranın BMT-nin baş katibinə ünvanlanmış məktubunda dövlətin adının beynəlxalq təşkilata üzv ölkələrdə xarici dillərdə yeni yazılışının "Türkiye" kimi təsdiqlənməsi istənilir.**






Bildirilir ki, tələb təmin olunarsa, beynəlxalq forumlarda və rəsmi sənədlərdə əvvəllər yayılmış başqa adlar yerinə "Türkiye" adı istifadə olunacaq.

### Türkiyənin dünyadakı nüfuzu daha da artır

Bu yenilik Ankaranın ölkənin beynəlxalq aləmdə nüfuzunun artırılmasına yönəlmiş addımları çərçivəsində qəbul edilib.

Rəsmi Ankaranın Türkiyə adının xarici dillərdə yazılışının dəyişdirilməsi ilə bağlı BMT-yə etdiyi rəsmi müraciətlə bağlı məlumat verən qardaş ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu rəsmi tviter hesabında qeyd edib ki, BMT-nin baş katibinə ünvanlanmış məktubda məsələyə aydınlıq gətirilib: "Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkəmizin brendinin nüfuzunu artırmaq üçün başladığımız proses sona çatmaq üzrədir. Bu gün BMT-nin baş katibinə göndərdiyim məktubla ölkəmizin xarici dillərdə adını BMT-də "Türkiye" olaraq qeyd edirik. Bu, bizim üçün xeyirli olsun!"

Anadolu Dövlət Agentliyinin verdiyi xəbərə əsasən, mayın 31-də Türkiyə Birləşmiş Millətlər Təşkilatına və digər beynəlxalq strukturlara ölkənin adının ingilis dilində yazılışının dəyişdirilməsi ilə bağlı rəsmi müraciət təqdim edib. Xarici işlər naziri Mövlud Çavuşoğlunun məktubunda Türkiyə hökuməti tərəfindən bütün beynəlxalq forumlarda ingilisləşmiş "Turkey" əvəzinə "Türkiye" adının istifadəsi BMT-dən rəsmi şəkildə tələb olunur.

"Prezident Administrasiyasının Əlaqələr İdarəsi ilə birlikdə bunun üçün yaxşı zəmin hazırlaya bildik. Biz BMT və digər beynəlxalq təşkilatlara və ölkələrə "Türkiye"nin istifadəsinə keçidi görmək imkanı verdik", - deyə Çavuşoğlu bildirib.

Türkiyə diplomatiyasının rəhbəri milli aviadaşıyıcı Türk Hava Yollarının "Salam Türkiye" adlı reklam kampaniyasına da diqqət çəkib. Onun dediyinə görə, bütün dünyada 30 milyondan çox insan artıq bu reklamla tanış olub.

Nazir əlavə edib ki, bundan sonra Türkiyədə istehsal olunan mallara "Made in Turkey" yox, "Made in Türkiye" etiketi vurulacaq.

### Rəcəb Tayyib Ərdoğan: Yeni ad türk millətinin dəyərlərini təmsil və ifadə edir

Xatırladaq ki, hər cür fəaliyyətdə və ixrac məhsullarında yazışmalarda marka olaraq "Made in Turkey" ifadəsinin yerinə "Made in Türkiye" ifadəsindən istifadə edilməsi ilə bağlı Prezidentin sərəncamı ötən il dekabrın 4-də "Rəsmi qəzet"də dərc olunub.

Rəcəb Tayyib Ərdoğanın imzaladığı sənəddə deyilir: "Türkiyə Cümhuriyyəti minillik dövlət ənənəsinin işığında qədim türk millətinə yaraşan keyfiyyətli və dəyərli işlər həyata keçirərək, millətin mədəniyyətini və dəyərlərini qoruyub saxlamağı və tərənnüm etməyi özünün başlıca vəzifələrindən biri hesab edir. "Türkiye" brendi milli və beynəlxalq mediada ölkənin başlıca brendi kimi qəbul edilir. "Türkiye" ifadəsi türk millətinin mədəniyyətini, sivilizasiyasını və dəyərlərini ən yaxşı şəkildə təmsil və ifadə edir. Hər cür fəaliyyət və yazışmalarda "Türkiye" ifadəsi işlədiləcək".

Bildirilir ki, beynəlxalq ticarətdə ölkənin qüruru olan məhsullar "Türkiye" ifadəsi ilə bütün dünyada tanıdılacaq: "Bundan sonra dövlətimizin və millətimizin minillik təcrübəsini dünya bazarlarında təmsil etmək qarşıya məqsəd qoyulub".

Türkiyə BMT, NATO, BVF və Dünya Bankının üzvü, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, ATƏT, QDİƏT, İƏT və "Böyük 20"lik kimi təşkilatların qurucu üzvüdür. Türkiyə 1949-cu ildən Avropa Şurası, 1963-cü ildən Avropa İqtisadi Birliyi, 1995-ci ildən Avropa İttifaqı Gömrük Birliyinin üzvü kimi fəaliyyət göstərir. 2005-ci ildən etibarən ölkənin Avropa İttifaqına daxil olması ilə əlaqədar danışıqlar başlayıb. Hazırda Türkiyə böyüyən iqtisadiyyatı və diplomatik təşəbbüsləri sayəsində regional güc mərkəzi olaraq qəbul edilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# 30 ölkə, 550-dən çox yoluxma

## Səhiyyə qurumları meymunçiçəyi üçün yeni vaksin hazırlamağı planlaşdırırlar

Meymunçiçəyinə yoluxma faktı hələ ki, ölkəmizdə aşkarlanmasa da, dünyadakı vəziyyət cəmiyyəti təşvişə salır. Son açıqlamalar onu deməyə əsas verir ki, bu xəstəliyə yoluxanların sayı artır.

Belə ki, yoluxma hallarının müşahidə edildiyi ölkələrin siyahısına gündən-günə yeniləri əlavə edilir. Səhiyyə qurumları bu xəstəliyə qarşı mövcud peyvəndlərdən əlavə yeni vaksin hazırlamağı da planlaşdırır.

### Simptomlar müşahidə edilərsə, test tətbiq oluna bilər

Ümumdünya Səhiyyə Təşkilatının yaydığı son məlumatlara əsasən, 30 ölkədə 550-dən çox meymunçiçəyi virusuna yoluxma halı qeydə alınıb. Bir neçə gün öncə bu, qeydə alınanın yarısı qədər idisə, indi sürətli artım fərqli tədbirləri görməyə əsas verir. Artıq dünya ölkələri bu virusu aşkarlayan PCR testinin tətbiq olunmasına başlayıblar. İsveçrənin məşhur əczaçılıq şirkətlərindən biri tərəfindən təqdim edilən bu testlə tez bir zamanda meymunçiçəyi virusunu aşkar etmək və onun epidemioloji yayılmasının qarşısını almaq mümkündür. Həta ABŞ-da səhiyyə nümayəndələri virus üçün PCR testindən geniş istifadə etməyə çalışırlar.

ÜST səhiyyə işçilərini səpgi, qızdırma, şişkin limfa düyünləri, baş ağrısı, bel ağrısı, əzələ ağrıları və yorğunluq kimi mövcud əlamətləri diqqətlə izləməyə və bu simptomları olan hər kəsə test təklif etməyə çağırır. PCR testindən istifadə edəcək ölkələr sırasına Gürcüstan da qoşulub. Belə ki, ölkə rəhbərliyi insanların meymunçiçəyinə yoluxduğunu daha tez aşkarlamaq üçün gələn həftədən ölkəyə gətiriləcək testlərlə 2 saat müddətində virusa yoluxma halını müəyyənləşdirəcəklər. Hazırda isə laboratoriyalarda meymunçiçəyinə yoluxma diaqnozu hələ də genom ardıcıllığı ilə aparılır və bu bir neçə gün çəkir.

### Vaksin həm sayı, həm də yayılma miqyasını azalda bilər

Digər məsələ isə əhalinin bu virusa qarşı immunlaşdırılmasıdır. Almaniyanın səhiyyə qurumları yeni vaksinlənməyə başlamağı planlaşdırırlar. Alimlər hesab edirlər ki, əvvəlcə mövcud vaksinlərin effektivliyi və yerli istehsalın təşkilinin mümkün olub-olmaması öyrənilməlidir. Həmçinin ekspertlər yoluxanlarla təmasda olmuş şəxslər üçün üç həftəlik karantin tətbiq etməyi də məsləhət görürlər.

Ağ Evdə meymunçiçəyi ilə mübarizənin iki formalı üsulla aparılması müəyyənləşdirilib. Doktor Rac Pancabi açıqlamasında bildirib ki, birinci hissə yoluxmuş şəxsləri müəyyən etmək və onları təcrid edərək müalicəyə istiqamətləndirməkdən, ikinci hissə isə yoluxmuş şəxslərlə təmasda olanların peyvəndlənməsindən ibarətdir. Bununla da, epidemiyanın yayılmasının qarşısını almaq mümkün ola bilər. Eyni zamanda o da bildirilir ki, qorunmaq üçün hər kəsin pevyənd olunmasına ehtiyac yoxdur. Təmasdan sonra profilaktik tədbir kimi vaksin uğurlu addım hesab edilir.

Meymunçiçəyi virusu təkcə insanlar üçün yox, eləcə də ev heyvanları üçün təhlükəli hesab edilir. Belə ki, Böyük Britaniya Səhiyyə Təhlükəsizliyi Agentliyinin yeni tövsiyəsinə əsasən, bu virusa yoluxan xəstələr 21 gün ərzində ev heyvanları ilə hər hansı təmasdan çəkinməlidirlər. Xüsusilə gəmiricilər xəstəliyə həssas ola bilər və xəstəlik heyvanların populyasiyasında da yayıla bilər. Bu günə qədər heyvanlarda heç bir faktın aşkarlanmadığı qeyd edilsə də, riskin olduğu söylənilir.

### Azərbaycan da virusu aşkarlayan testlərin əldə edilməsini gözləyir

Ölkəmizə gəldikdə isə meymunçiçəyinin yayıldığı dövrdən indiki vaxta qədər heç bir yoluxma halı aşkarlanmayıb. Lakin qorunma tədbirləri çərçivəsində Azərbaycan da bu virusu müəyyən edən testlərin əldə edilməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına müraciət edib.

Nəzərə alınmalıdır ki, xəstəliyin belə sürətli yayılması ilə ölkəmizdə də meymunçiçəyinin müşahidə edilməsi istisna edilmir. Hər hansı müvafiq simptom aşkarlanarsa, həkimə dərhal müraciət etmək lazımdır.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# Revanşistlərin niyyəti iflasa uğrayır

## İrəvanda xalqdan dəstək ala bilməyən müxalifət geri çəkilir

Ermənistanda aprelin 25-dən davam edən etirazlar fonunda siyasi böhran gündən-günə kəskinləşir. Bu, həm də sosial-iqtisadi vəziyyətin pisləşməsinə səbəb olub. Müxalifət partiyaları baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün birləşsə də, hələ ki, heç bir nəticəyə nail ola bilmirlər.

Müxalifətçilər etirazlarına əsas kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

Radikal müxalifətçilər aksiyalarda təxribatçı çağırışlarla Azərbaycan ərazisində mövcud olmuş keçmiş separatçı rejimə dəstəklərini ifadə edirlər. Dünən İrəvanda hökumət binası yaxınlığında etiraz aksiyası keçirən müxalifət nümayəndələri ilə polislər arasında toqquşma olub. Bir neçə etirazçı yerə yıxılan polisi döyüb. Müxalifətin "Müqavimət" hərəkatının tərəfdarlarını "qırmızı beretlilər" saxlayaraq bölmələrə aparıblar. Amma etirazçılar manevr edərək qısamüddətli yürüşdən sonra hökumət binasına geri dönüblər. Onlar binanın içərisinə girmək istəsələr də, buna nail ola bilməyiblər.

İkinci Qarabağ müharibəsində ölmüş hərbçilərin valideynləri isə aidiyyəti dövlət qurumlarının qarşısında aksiyalar təşkil edirlər. Ermənistan İstintaq Komitəsinin binası qarşısına toplaşan valideynlər komitə sədri ilə görüş tələb edirlər. Müharibədə yaralanan Levon Minasyanın atası deyib ki, 44 günlük müharibədə əlil olmuş, amma tibbi-sosial ekspertiza zamanı hüquqlarının pozulmasından şikayət edən xeyli sayda hərbçi var. Müharibədə ağır yaralanmış həmin şəxslər şikayət edirlər ki, sözügedən ekspertizanın gedişində ekspert komissiyalarının qərarı anormal qaydalarla verilir. Yəni onlar 1-ci qrup olsalar da, 3-cü qrup üzrə əlillik alırlar. Bir çoxu isə, ümumiyyətlə, əlil statusu ala bilmir.

Bu arada erməni müxalifəti yaxın günlərdə itaətsizlik aksiyalarının başa çatdığını elan edirlər. Qeyd edilir ki, əsl səbəb müxalifətin etiraz aksiyalarını kütləviləşdirə bilməməsidir.



Aprelin sonundan silsilə aksiyalar keçirən müxalifət yalnız mayın 2-də 14 min etirazçı toplaya bilib. Bundan sonra aksiyalarda iştirak edənlərin sayı azalmağa başlayıb. Son günlər aksiya iştirakçılarının sayı hətta küçə və prospektləri bloklamağa belə kifayət etmir.

Ümumiyyətlə, müxalif "Şərəfim var" fraksiyasının lideri Artur Vanetsyanın Ermənistanda başladığı mitinqlərin real sosial bazası yoxdur. Bu aksiyaya son günlər azsaylı etirazçının çıxması revanşistlərin növbəti iflasından xəbər verir. Ermənilər etirazçıların arxasında dayanan keçmiş hərbi xuntanın populist çıxışlarından bezərək onların arxasınca getmək istəmirlər. Çünki erməni cəmiyyəti bu şəxslərin Qarabağla bağlı uydurmalarla və Azərbaycana düşmənçiliyi təbliğ etməklə siyasi xal toplamağa, yenidən hakimiyyətə gəlməyə çalışdıqlarını yaxşı anlayır. Koçaryan və Sarkisyan kimi insan qatilləri və onların ətraflarına toplaşanlar erməni xalqının reallığı, həqiqəti qəbul etməsinə mane olmağa cəhd göstərsələr də, buna nail ola bilmirlər.

Ermənistanda xalqı siyasi proseslər deyil, məhz getdikcə daha da çökməkdə olan sosial-iqtisadi vəziyyət düşündürür. Dərin ruh düşkünlüyünə qərq olan əhalinin əksəriyyəti isə çıxış yolunu mühacirətdə görür. Əhalinin sayı yenə sürətlə azalmaqda davam edir, xaricə köçənlərin sayı artır. Təbii artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir. Erməni sosioloqu Samvel Manukyan deyib ki, bir il içində 150-200 min erməni mühacirət edə bilər. Köç edənlərin əksəriyyəti isə Rusiya istiqamətini seçir. Çünki Rusiya onlara yeni həyat qurmaq üçün daha çox imkanlar vəd edir. Asan sosiallaşma, mövcud məşğulluq imkanları Rusiyada daha böyükdür. Üstəlik, bu ölkədə dil maneəsi yoxdur.

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi ASC-nin Enerji İstehsalı Operatorunun rəis müavini

**ŞİRİN QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasov və cəmiyyətin kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Enerji Qrup" MMC-nin direktoru Xəyal Nəsibov və kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova və universitetin kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Oktay Abbasov Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi vəkil Allahverdi Sadıqlıya bacısı

**GÜLƏZƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**"Bakıxanov Trikotaj" ASC-nin səhmdarlarının nəzərinə**

"Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq "Bakıxanov Trikotaj" ASC səhmdarlarını 13 iyun 2022-ci il saat 11:00-da növbəti yığıncağa dəvət edir. Yığıncaqda aşağıdakı məsələlərə baxılacaq:

1. 2021-ci il üzrə mühasibat balansı və hesabatların təsdiq edilməsi.
2. Cari məsələlər.

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Yavər Əliyev, 26.**
**Əlaqə telefonu: 012 425-23-22.**

*Rəhbərlik*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5967
Sifariş 1513
Qiyməti 40 qəpik